16 dekabr 2022 №93 (1966)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Prezident Türk Dövlətləri Təşkilatının baş katibini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də Türk Dövlətləri Təşkilatının (TDT) baş katibi Kubanıçbek Ömüralıyevi qəbul edib.

Prezident Kubanıçbek Ömüralıyevi bu vəzifəyə seçilməsi münasibətilə təbrik edib, ona fəaliyyətində uğurlar arzulayıb.

TDT-nin fəaliyyətinə toxunan İlham Əliyev təşkilatın beynəlxalq səviyyədə öneminin artdığını məmnunluqla qeyd edib, bunun üzv və müşahidəçi dövlətlərin beynəlxalq nüfuzunun və iqtisadi potensialının artmasına xidmət etdiyini bildirib, təşkilatın Səmərqənddə keçirilən IX Zirvə görüşünün əhəmiyyətini vurğulayıb.

K.Ömüralıyev TDT-ni yaradan dövlətlər sırasında ilk olaraq Azərbaycana səfər etməsindən məmnunluğunu bildirib və təşkilatın fəaliyyətinin gücləndirilməsində ölkəmizin fəal rolunu xüsusi qeyd edib.

TDT-nin baş katibi vurğulayıb ki, 44 günlük Vətən müharibəsində Azərbaycanın Qələbəsi və işğal altındakı ərazilərini azad etməsi bütün Türk dünyası üçün böyük önəm daşıyır. Kubanıçbek Ömüralıyev üzv dövlətlərin dil və mədəniyyət baxımından ümumi köklərə malik olduğunu qeyd edərək əməkdaşlığın gücləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini bildirib.

# Türk dünyasında əməkdaşlıq yeni formatlarla möhkəmlənir

### "Azərbaycan, Türkiyə və Türkmənistan bir-biri ilə etnik, dini-mədəni köklər və ortaq mənəvi dəyərlərlə sıx bağlıdır"



Bu il ikinci dəfə qardaş Türkmənistana səfər edirəm və yenidən burada olmaqdan çox məmnunam. Azərbaycan, Türkiyə və Türkmənistan bir-biri ilə etnik, dini-mədəni köklər və ortaq mənəvi dəyərlərlə sıx bağlıdır. Biz haqlı olaraq xalqlarımızın zəngin tarixi-mədəni irsi və bəşər sivilizasiyasına verdiyi böyük töhfələri ilə qürur duyuruq. Azərbaycanın həm Türkiyə, həm də Türkmənistanla siyasi əlaqələri yüksək səviyyədədir.

Prezident İlham Əliyev bu sözləri dekabrın 14-də Türkmənbaşı şəhərində Türkmənistan, Azərbaycan və Türkiyənin Dövlət Başçılarının Birinci Zirvə Görüşündə çıxışı zamanı deyib.

Qeyd edək ki, "Avaza" Milli Turizm Zonasında bir araya gələn Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov, Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın əvvəlcə məhdud tərkibdə, sonra isə geniş tərkibdə görüşləri olub.

2021-ci ildə Azərbaycanın Türkiyə ilə imzaladığı Şuşa Bəyannaməsinin ikitərəfli münasibətləri strateji müttəfiqlik səviyyəsinə çatdırdığını, 2017-ci ildə Azərbaycanla Türkmənistan arasında strateji tərəfdaşlıq haqqında Bəyannamə imzalandığını diqqətə çatdıran İlham Əliyev bildirib ki, ölkələrimiz beynəlxalq təşkilatlar çərçivəsində də bir-birinə qarşılıqlı dəstək göstərir və əməkdaşlıq edir.

Prezident qeyd edib ki, tarixi bağlar üzərində qurulmuş münasibətlərimiz ölkələrimiz arasında iqtisadiyyat, ticarət, nəqliyyat-logistika və digər sahələrdə əməkdaşlığın inkişafı üçün imkanlar yaradır. 2022-ci ilin yanvar-oktyabr aylarında Azərbaycanın Türkiyə ilə ticarət dövriyyəsi 45 faiz artaraq 5 milyard dollara çatıb. Bu il Türkmənistan ilə ticarət dövriyyəsi 5 dəfə artıb. Hər üç ölkədə nəqliyyat-logistika sahəsinə qoyulan sərmayələr yeni, müasir infrastrukturun yaradılmasına xidmət edir. Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin fəal iştirakçısıdır və öz ərazisində dəmiryolu, avtomobil nəqliyyatı və hava nəqliyyatı ilə bağlı olan bütün əsas layihələri icra edərək önəmli tranzit ölkəsinə çevrilib.

"Hazırda Zəngəzur dəhlizinin açılması ilə fəal məşğuluq. Zəngəzur dəhlizinin Azərbaycan ərazisindən keçən hissəsində aparılan işlərin dəmiryolu xətti üzrə 40 faizi, avtomobil yolu üzrə 70 faizi icra olunub. Bütün işlər 2024-cü ildə tamamlanacaq və nəticədə yeni nəqliyyat dəhlizi yaranacaq", – deyə İlham Əliyev vurğulayıb.

davamı səh. 2-də

## Mədəniyyət naziri kino ictimaiyyəti ilə görüşüb

Mədəniyyət naziri Anar Kərimov dekabrın 13-də respublikanın kino ictimaiyyəti ilə görüş keçirib.

Dövlət Film Fondunda gerçəkləşən görüşdə Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı, Azərbaycan Kinematoqrafçılar İttifaqı, Azərbaycan Professional Kinorejissorlar Gildiyası, Azərbaycan Prodüserlər Gildiyası və digər ictimai təşkilatların təmsilçiləri, eləcə də yaşlı, orta və gənc nəsil kinematoqrafçılar, film istehsalı ilə məşğul olan dövlət və özəl sektor üzrə qurumların – kinostudiya, şirkət və prodüser mərkəzlərinin, kinoteatrlar şəbəkələrinin nümayəndələri iştirak ediblər.

Görüşdə kino sahəsindəki mövcud vəziyyət, o cümlədən son iki ildə görülən işlər və qarşıya çıxan problemlərlə bağlı açıq və səmimi ortamda ətraflı fikir mübadiləsi aparılıb. Nazir bu xüsusda mülahizələrini bölüşüb, görüş iştirakçılarının fikir, təklif və qeydlərini dinləyib.

davamı səh. 5-də

## Humanitar əməkdaşlıq: otuz ilin təcrübəsi və inkişafın perspektivləri

MDB-nin iştirakçısı olan dövlətlərin Yaradıcı və elmi ziyalılarının XV Forumu 12-13 dekabrda Özbəkistanın paytaxtı Daşkənddə keçirilib.

"Humanitar əməkdaşlıq: otuz ilin təcrübəsi və inkişafın perspektivləri" adlı forumda Azərbaycandan Mədəniyyət, Elm və Təhsil, Gənclər və İdman nazirliklərini, AMEA-nı təmsil edən nümayəndə heyəti iştirak edib. Forumda "MDB ölkələrinin elm və təhsil ictimaiyyəti", "MDB-nin ən son mədəni kodu: əməkdaşlığın inkişaf vektorları", "Birlik ölkələrinin ədəbiyyatı: inteqrasiyanın yeni mexanizmləri", "Birlik ölkələri gənclərinin əməkdaşlığı" mövzularında müzakirələr aparılıb.

Forum iştirakçıları MDB ölkələrinin xalqları arasında çoxtərəfli humanitar əməkdaşlığın daha da möhkəmləndirilməsi, ümumi mədəni, təhsil və informasiya məkanının inkişaf etdirilməsi, çoxəsrlik mənəvi əlaqələrin qorunub saxlanılması və əməkdaşlığın yeni, səmərəli formalarının axtarışının tərəfdarı olduqlarını bəyan ediblər.

Bu barədə tədbirin yekunlarına dair qətnamədə deyilir.

davamı səh. 3-də

## Azərbaycan tərəfi dialoqa hər zaman açıqdır

Bu gün biz faktlarla bir daha göstərdik ki, Azərbaycan tərəfi dialoqa hər zaman açıq olub. Dialoqu irəli aparan tərəf məhz Azərbaycandır.

Xarici işlər naziri Ceyhun Bayramov bu sözləri dekabrın 15-də Azərbaycanda fəaliyyət göstərən diplomatik korpusun və beynəlxalq təşkilatların nümayəndələri üçün brifinqdən sonra jurnalistlərə müsahibəsində deyib.

Nazir bildirib ki, görüşdə diplomatlar bir qrup azərbaycanlı ekofəalın Laçın yolunda keçirdiyi aksiyanın səbəbləri, aksiyadan əvvəl baş verən hadisələr, öz ərazilərimizdə təbii sərvətlərin qanunsuz talan edilməsi, ekoloji sahədə ölkəmizə vurulan ziyanın qarşısının alınması üçün Azərbaycanın dövlət orqanları tərəfindən təklif olunan monitorinq mexanizmi barədə də məlumatlandırılıb.

davamı səh. 2-də

## Mədəni mülkiyyətin qorunması üzrə UNESCO Komitəsinin sessiyası keçirilir

15-16 dekabr tarixlərində Parisdə UNESCO-nun Silahlı münaqişələr zamanı mədəni mülkiyyətin qorunması üzrə Komitəsinin 17-ci sessiyası keçirilir.




Sessiyada ölkəmiz Azərbaycanın UNESCO yanında Daimi Nümayəndəliyi və Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəhbərliyi səviyyəsində təmsil olunur.

Daimi nümayəndəlikdən bildirilib ki, sessiyanın açılış günündə Komitənin bürosunun formalaşdırılması məsələsi müzakirə edilib. Azərbaycan Komitənin sədr müavini seçilib.

Sessiyanın gündəliyinə "Silahlı münaqişələr zamanı mədəni mülkiyyətin mühafizəsi haqqında" 1954-cü il Haaqa Konvensiyası və onun iki protokolunun UNESCO-nun digər konvensiyalarına inikası, Haaqa Konvensiyasının həyata keçirilməsi ilə bağlı resursların səfərbər edilməsi və digər məsələlərin müzakirəsi daxildir.

Qeyd edək ki, Azərbaycan 2021-ci ildə UNESCO-nun Silahlı münaqişələr zamanı Mədəni Mülkiyyətin Qorunması üzrə Komitəsinə üzv (4 il müddətinə) seçilib.

## Dombra – qəlb sazından çıxan səda



Ulu türk yurdu, qardaş Qazaxıstanın klassik musiqi ulduzları küləkli Bakıda əsl sənət rüzgarı əsdirib, ən müxtəlif zövqlərdəki musiqisevərləri xəyalən qumlu qazax yurdlarına – atçapan, bac alan, bir əlində qılınc, bir əlində dombra ulusa xaqanlıq edən qəhrəmanların dünyasına apara bildilər. "Astana Opera"nın heyəti bizi qazax xalqının həyatından sənətinə qüdrət və möhtəşəmliyinə heyran qoydu.

Bu il Qazaxıstan Respublikası ilə ölkəmiz arasında diplomatik əlaqələrin yaranmasının 30 illiyidir. Soy-kök etibarilə onsuz da bir-birinə sıx bağlı olan iki xalqın müstəqil dövlətlər olaraq əlaqələri bütün sahələrdə özünün ən yaxşı mərhələsini yaşayır. Xalqlarımızı bir hissə, bir duyğuya kökləyən sənət, musiqi bu mənada daim ön planda gəlir.

İstər Qazaxıstanda Azərbaycana, istərsə də ölkəmizdə qazax xalqına və incəsənətinə daim böyük maraq və sevgi olub. Dekabrın 13-də 140 nəfərlik heyətlə Bakıya gələn məşhur "Astana Opera" Teatrının orkestr və solistlərinin Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında bənzərsiz qala-konsertini izləyənlər iki xalqın bir-birinə xoş münasibətinə şahid oldular.

Ölkəmizə, mədəniyyətimizə sevgiləri gözlərindən oxunan qazaxıstanlı klassik musiqi təmsilçiləri də bu mənzərədən məmnun idilər. Bu hissi konsert öncəsi mətbuat konfransında dönə-dönə qeyd edən sənətçilər belə səfərlərin təşkilinin mübadilə üçün önəmini bildirdilər.

davamı səh. 5-də

## "Böyük Azərbaycan şairi Nizami" kitabı çex oxucuların ixtiyarına verilib



Azərbaycanın Çex Respublikasındakı Səfirliyinin təşkilatçılığı ilə Praqada Nizami Gəncəvinin ədəbi irsinə həsr olunmuş tədbir keçirilib. Tədbirdə səfirliyin təşəbbüsü və dəstəyi ilə çex dilində işıq üzü görən Yevgeni Bertelsin "Böyük Azərbaycan şairi Nizami" kitabı təqdim edilib.

səh. 3

## Bakıda Türk filmləri həftəsi

17-21 dekabr tarixlərində Nizami Kino Mərkəzində Türk filmləri həftəsi keçiriləcək. Layihə Türkiyə Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Mədəniyyət Nazirliyi, Bakı Yunus Əmrə İnstitutu və Yerli Düşüncə Dərnəyinin birgə təşkilatçılığı ilə gerçəkləşəcək.

Kino həftəsi dekabrın 17-də rejissor Semih Kaplanoğlunun "Bağlılık Həsən" filmi ilə başlanacaq. 19 dekabrda isə Nizami Kino Mərkəzində S.Kaplanoğlunun ustad dərsi keçiriləcək, yerli kinematoqrafçılarla görüşəcək.

Layihənin proqramına əsasən, "Sədaqət Həsən", "Yeddinci koğuşdakı möcüzə", "Uğurlar, Eren", "Sədaqət – müqəddəs döyüş", "Eşqin ömrü", "Ankara yazı", "Vida məktubu" və "Rafadan tayfa – Göbəklitəpə" (cizgi filmi) ekran əsərləri nümayiş etdiriləcək. Seanslara giriş pulsuz olacaq.

Bundan əlavə, türkiyəli rejissorlar Mustafa Kara, Mehmet Altınal və Qalip Günel, aktyorlar İpək Tuzcuoğlu, İlker Aksum, Umut Karadağ kino həftəsi çərçivəsində Bakıda müvafiq sahə üzrə tələbələrlə, kino xadimləri ilə görüşəcəklər. Birgə layihələrlə bağlı müzakirələr aparılacaq.




Elmi Bərpa Mərkəzinin "Şuşa İli" üzrə hesabatı




səh. 2

Əməkdar incəsənət xadimi, bəstəkar Oqtay Rəcəbov vəfat edib

səh. 2



Diplomatik münasibətlərin 25 illiyi Belqradda qeyd olunub

səh. 8

# Türk dünyasında əməkdaşlıq yeni formatlarla möhkəmlənir

“Azərbaycan, Türkiyə və Türkmənistan bir-biri ilə etnik, dini-mədəni köklər və ortaq mənəvi dəyərlərlə sıx bağlıdır”



*əvvəli səh. 1-də*

Prezident qeyd edib ki, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının illik yükaşırma qabiliyyətinin hazırkı 15 milyon tondan 25 milyon tona, 2017-ci ildə açılışı olan Bakı-Tbilisi-Qars dəmiryolu layihəsinə əlavə sərmayə qoyularaq ötürücülük qabiliyyətinin hazırkı 1 milyondan 5 milyon tona çatdırılması nəzərdə tutulur. Azərbaycan 50-dən çox yük gəmisi ilə Xəzər dənizində ən böyük ticarət donanmasına, 18 yük təyyarəsi ilə regionda ən böyük mülki hava yük donanmalarından birinə malikdir.

Diqqətə çatdırılıb ki, hazırda Azərbaycanda 8 beynəlxalq hava limanı fəaliyyət göstərir. Onlardan ikisi işğaldan azad olunmuş ərazilərdə – Füzuli və Zəngilanda istifadəyə verilib. İşğaldan azad olunmuş Laçında ölkəmizin sayca 9-cu beynəlxalq hava limanının 2024-cü ildə açılması nəzərdə tutulub.

Prezident daha sonra deyib: “2020-ci ilin sonunda 44 günlük Vətən müharibəsində əldə olunmuş Zəfər nəticəsində torpaqlarımız Ermənistanın 30 illik işğalından azad edildi. Qarabağ münaqişəsi həll edildi və bu Qələbə regionda yeni nəqliyyat-kommunikasiya layihələri üçün əlverişli imkan yaratdı.

Hazırda dünyada yeni çağırışlar və təhdidlər var. Bu səbəbdən digər sahələr ilə yanaşı, ölkələrimiz arasında təhlükəsizlik, müdafiə, müdafiə sənayesi kimi sahələrdə də əməkdaşlığın genişləndirilməsi böyük önəm daşıyır”.

Azərbaycan-Türkiyə-Türkmənistan üçtərəfli formatında görüşün önəmini bir daha vurğulayan İlham Əliyev ümidvar olduğunu bildirib ki, belə görüşlər bundan sonra müntəzəm olaraq keçiriləcək və qardaş ölkələrimiz arasında münasibətlərin daha da inkişaf etməsinə böyük töhfə verəcək.

### Elm, təhsil və mədəniyyət sahələrində əməkdaşlıq üçün zəmin

Dekabrın 14-də Türkmənbaşı şəhərində prezidentlər İlham Əliyevin, Rəcəb Tayyib Ərdoğanın və Sərdar Berdiməhəmmədovun geniş tərkibdə görüşündən sonra Azərbaycan-Türkiyə-Türkmənistan sənədləri imzalanıb.

Əvvəlcə Azərbaycan Respublikası, Türkiyə Respublikası və Türkmənistan Dövlət Başçılarının Birinci Zirvə Görüşünün Birgə Bəyanatı qəbul edilib.

Sonra ticari-iqtisadi əməkdaşlıq haqqında hökumətlərarası saziş, gömrük əməkdaşlığına dair Birgə məşvərət komissiyasının yaradılması haqqında hökumətlərarası memorandum, energetika və nəqliyyat sahəsində əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı memorandumlar, həmçinin “2023-2025-ci illər üzrə elm, təhsil və mədəniyyət sahələrində əməkdaşlığa dair hökumətlərarası Çərçivə Proqramı” imzalanıb. Çərçivə proqramını Türkmənistan Nazirlər Kabineti sədrinin müavini Nurməhəmməd Amannepesov, Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu imzalayıblar.

***

Prezident İlham Əliyevin Türkmənbaşı şəhərində Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov, Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla ayrılıqda görüşləri olub.

Dövlət başçısının Türkmənistana səfəri dekabrın 14-də başa çatıb.

# Birinci xanımlar Türkmənistanın təsviri və dekorativ sənət əsərləri sərgisi ilə tanış olublar

Dekabrın 14-də Türkmənbaşı şəhərində Azərbaycan, Türkiyə və Türkmənistan dövlət başçılarının Zirvə görüşü çərçivəsində Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva, Türkmənistan Parlamenti Xalq Məsləhəti sədrinin xanımı Oqulgerek Berdiməhəmmədova və Türkiyənin birinci xanımı Əminə Ərdoğan təsviri və dekorativ sənət əsərlərindən ibarət sərgi ilə tanış olublar.





Türkmənistanın təsviri və dekorativ sənət əsərləri sərgisi 11 bölmədən ibarətdir.

Sərginin bölmələrində türkmən xalqının bütün dünyada məşhur xalça və xalça məhsulları, keşdə üslubunda hazırlanmış milli qadın geyimləri, qadınlar üçün milli zinət əşyaları, o cümlədən üzük, sırğa, bilərzik və digər aksesuarlar, türkmən qadın rəssamlarının əsərləri və əl işləri nümayiş olunur.

Eyni zamanda, sərgidə milli “ume” ayini icra olunub, türkmən təbiətinin gözəlliyini və xüsusiyyətlərini əks etdirən xalçalar təqdim edilib.

Sonra türkmən qızlar folklor mahnıları ifa ediblər, toy adət-ənənələri təqdim olunub. Yerli qadınların hazırladıqları keramika nümunələri, tikmələr, keçə xalçalar qonaqlarda xoş təəssürat yaradıb.

Tədbir çərçivəsində Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya xatirə hədiyyələri təqdim edilib.

Daha sonra konsert proqramı və Türkmənistanın milli geyimləri nümayiş olunub.

Sərgi ilə tanışlıqdan sonra Azərbaycanın birinci xanımı Mehriban Əliyeva, Türkmənistan Parlamenti Xalq Məsləhəti sədrinin xanımı Oqulgerek Berdiməhəmmədova və Türkiyənin birinci xanımı Əminə Ərdoğan çay süfrəsi arxasında söhbət ediblər.

# Əməkdar incəsənət xadimi, bəstəkar Oqtay Rəcəbov vəfat edib



Azərbaycan mədəniyyətinə ağır itki üz verib. Əməkdar incəsənət xadimi, Prezident təqaüdçüsü, tanınmış bəstəkar Oqtay Rəcəbov dekabrın 15-də, 81 yaşında vəfat edib.

Oqtay Məmmədağa oğlu Rəcəbov 1941-ci il aprelin 5-də Bakı şəhərində anadan olub. İlk ali təhsilini Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Fizika və istehsalatın əsasları fakültəsində alıb. 1969-cu ildə Azərbaycan Dövlət Konservatoriyasını bitirib.

Bəstəkarın çoxşaxəli yaradıcılığı, əksər musiqi janrlarını əhatə edən əsərləri mədəniyyətimizin xəzinəsini bəzəyən nadir nümunələrdəndir. Qələmindən çıxan simfoniyalar, kamera və vokal-simfonik əsərlər, musiqili səhnə əsərləri, habelə kinofilmlərə yazdığı musiqi yüksək tamaşaçı rəğbəti qazanıb. Oqtay Rəcəbov ölkəmizin mədəni irsinin, dəyərlərinin, uzun illər ərzində xalqımızın ən ağrılı dərdi olan torpaqlarımızın işğalı və azad olunması uğrunda canından keçmiş qəhrəmanlarımızın yaddaşlara həkk olunması məqsədilə dəyərli əsərlər yaradıb. “Xocalı avazları”, “Çingiz” oratoriyası, “Xocalı” simfoniyası xalqımızın qan yaddaşını musiqidə yaşadan əsərlərdir.

Bəstəkarın Ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr etdiyi əzəmətli “Heydər” oratoriyası, fortepiano üçün “Ulu öndər” əsəri yaradıcılığının ölməz nümunələridir.

Oqtay Rəcəbovun əziz xatirəsi musiqisevərlərin yaddaşında daima yaşayacaq.

Allah rəhmət eləsin.

# Tbilisidə Hökumətlərarası Komissiyanın iclası

Dekabrın 15-də Tbilisidə Azərbaycan Respublikası və Gürcüstan arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 9-cu iclası keçirilib.

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, Baş nazirlər Əli Əsədov və İrakli Qaribaşvilinin sədrliyi ilə keçirilən iclasda iki ölkənin müvafiq dövlət strukturlarının rəhbərləri iştirak ediblər.

Əli Əsədov açılış nitqində qeyd edib ki, bu il Azərbaycanla Gürcüstan arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü tamam olur. Bu illər ərzində iki ölkənin münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib.

Baş nazirin nitqində siyasi, iqtisadi, investisiya, enerji, nəqliyyat, mədəni, humanitar sahələrdə əlaqələrin inkişafından məmnunluq ifadə olunub. Beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyin vacibliyi qeyd edilib.

Regionlararası əməkdaşlıqdan danışan Əli Əsədov deyib: “Son zamanlar ölkələrimizin ayrı-ayrı şəhər və rayonları arasında təmaslar daha da intensivləşib ki, bu da təbii olaraq Azərbaycan-Gürcüstan əlaqələrinin hərtərəfli inkişafına çox müsbət təsir göstərir”.

Diqqətə çatdırılıb ki, ötən dövrdə və cari ildə iki ölkənin bir sıra şəhər və rayonları, o cümlədən Bakı və Tbilisi arasında qardaşlaşma haqqında sazişlər imzalanıb. Bu müsbət tendensiya nəzərə alınaraq Azərbaycan-Gürcüstan regionlararası forumunun keçirilməsi ilə bağlı təşəbbüs irəli sürülüb.

Enerji sektoru ikitərəfli əməkdaşlığın əsas prioritetlərindən biri kimi qiymətləndirilib. Bildirilib ki, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Cənub Qaz Dəhlizi layihələri həm Azərbaycanın, həm də Gürcüstanın iqtisadi inkişafına böyük töhfə verir. Bakı-Tbilisi-Qars dəmiryolunun əhəmiyyəti xüsusi vurğulanıb. Qeyd olunub ki, dəmiryolunun tam gücü ilə işə salınması ölkələrimizin daha da çiçəklənməsinə və iqtisadi tərəqqisinə xidmət edəcək.

Görüşdə Azərbaycan-Gürcüstan strateji tərəfdaşlıq münasibətlərinin bütün istiqamətləri üzrə inkişaf perspektivləri geniş müzakirə olunub.

İclasın yekununda Baş nazirlər Əli Əsədov və İrakli Qaribaşvili tərəfindən Azərbaycan Respublikası ilə Gürcüstan arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 9-cu iclasının Protokolu imzalanıb.

Müvafiq dövlət strukturlarının rəhbərləri kənd təsərrüfatı, ekologiya, kiçik və orta biznes sahələrində əməkdaşlığın inkişafına dair bir sıra sazişlər imzalayıblar.

# Azərbaycan tərəfi dialoqa hər zaman açıqdır

“Qarabağdakı ermənilərin Azərbaycan qanunları çərçivəsində orada yaşamaq haqqı var”

*əvvəli səh. 1-də*

“Təqribən son iki ay ərzində Azərbaycanın bu sahədə çoxsaylı müraciət etməsi, dekabrın 3-də görüşün keçirilməsi, müvafiq orqanlar tərəfindən yol xəritəsinin hazırlanaraq dekabrın 5-də təqdim olunması, ayın 10-da monitorinqin keçirilməsinə dair razılığın əldə edilməsi Azərbaycan tərəfinin dialoqa açıq olduğunu, bu məsələnin əməkdaşlıq şəraitində həll edilməsini dəstəklədiyini bir daha göstərir. Azərbaycan bu yanaşmanı daha əvvəl də göstərib. Laçın dəhlizinə alternativ yolun çəkilməsi zamanı orada yerli erməni əhali ilə ünsiyyətlər də oldu, onların bir sıra xahişləri nəzərə alınmışdı. Sərsəng su anbarı ilə bağlı müzakirələrdə əməkdaşlıq yerli erməni mütəxəssisləri və əhalisi ilə razılaşdırılmış formada həyata keçirildi. Hesab edirik ki, bunun mənfi nəticələri olmamışdı”, – deyə Ceyhun Bayramov bildirib.

Nazir deyib ki, bu dəfə bu addımların atılmasının, təxribatların həyata keçirilməsinin arxasında duran insanlar, qüvvələr var. Onlar bunda maraqlı deyillər. Burada Azərbaycana deyil, qarşı tərəfə çağırışlar, ciddi xəbərdarlıqlar edilməlidir ki, təxribatlara əl atmasınlar. Onlar təxribatlarla heç nəyə nail ola bilməyəcəklər.

“Azərbaycan tərəfinin yanaşması konstruktivdir, ədalətlidir. Bütün məsələlər ölkəmizin qanunları çərçivəsində, suverenliyinə hörmət olunmaqla həll edilməlidir. Qarabağda yaşayan ermənilərin Azərbaycan qanunları çərçivəsində orada qalmaq, yaşamaq, öz həyatlarını qurmaq haqları var və Azərbaycan dövləti onların bu haqqını tanıyır”, – deyə Ceyhun Bayramov əlavə edib.

# Elmi Bərpa Mərkəzi 65 ildə 27 min eksponata yeni həyat verib

Dekabrın 15-də Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzində “Şuşa İli”nə həsr olunmuş hesabat-tədbir keçirildi. Tədbir Ulu öndər Heydər Əliyev və Prezident İlham Əliyevin Şuşa ilə bağlı söylədikləri fikirlərin yer aldığı videomaterialın nümayişi ilə başladı.





Elmi Bərpa Mərkəzinin direktoru Əməkdar mədəniyyət işçisi Zərifə Məlikova “Şuşa İli” çərçivəsində həyata keçirilən layihələrdən söz açdı. Diqqətə çatdırdı ki, tədbirə “Zoom” proqramı vasitəsilə regionların tarix-diyarşünaslıq muzeylərinin rəhbər və əməkdaşları da qoşulublar: “Biz xalq olaraq hər zaman Qarabağın azad olunacağına əmin idik. Buna görə də 44 günlük Vətən müharibəsindəki Qələbəmizə qədər də bu inamla həm paytaxt, həm də regionlarda Şuşa və Qarabağla bağlı muzey eksponatlarının bərpası ilə məşğul idik”.

Direktor bu il, həmçinin Elmi Bərpa Mərkəzinin yaradılmasının 65 illiyinin qeyd olunduğunu bildirdi: “Çox məmnunuq ki, bərpaya ehtiyacı olan və mərkəzə təqdim edilən eksponatlar sırasında Üzeyir Hacıbəyliyə məxsus skripkanı tam olaraq bərpa edə bilmişik. Həmçinin Üzeyir bəyin anası Şirinbəyim xanıma məxsus geyimlərin də bərpasını həyata keçirmişik. Vaxtilə Şuşanın baş memarı olmuş Tofiq Zeynalov tərəfindən taxta üzərində yaradılan “Cıdır düzü” tablosu əməkdaşlarımızın əməyi sayəsində ikinci nəfəs qazanıb, ilkin vəziyyətinə gətirilib”.

Mərkəzin baş mühafizi Pakizə Almazova əməkdaşlar tərəfindən həyata keçirilən bərpa işləri, eləcə də il ərzində reallaşan tədbirlər barədə məlumatı diqqətə çatdırdı. Muzeyin elmi işlər üzrə direktor müavini İranə İbrahimova isə regionlardakı muzeylərlə əməkdaşlıq çərçivəsində reallaşan layihələrdən söz açdı.

“Zoom” vasitəsilə tədbirə qatılan bölgələrdəki tarix-diyarşünaslıq muzeylərinin əməkdaşları muzeylərində qorunan və mərkəz tərəfindən bərpa edilən Qarabağa məxsus eksponatlar barədə məlumat verdilər. Saatlı Rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Sürəyya Zeynalova, Masallı Rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Əntiqə Tağıyeva, Xaçmaz Rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Pakizə Mehdiyeva bərpaçıların zəhmətini yüksək qiymətləndirdilər.

Ali kateqoriyalı bərpaçı, 1978-2022-ci illərdə mərkəzdə çalışmış Ruhəngiz Əliyeva bu günə kimi Şuşa və Qarabağ mövzusunda çoxsaylı eksponatları bərpa etməsindən fəxrlə söz açdı. Veteran bərpaçı kollektivdə yaradılan səmimi atmosferə görə direktora təşəkkür etdi.

Mədəniyyət Nazirliyinin Muzey, qalereya və sərgilər şöbəsi Muzey və daşınar mədəni irs sektorunun müdiri, sənətşünaslıq üzrə fəlsəfə doktoru Altun Mikayıllı 65 illik yubiley münasibətilə mərkəzin kollektivinə təbriklərini çatdırdı. Dedi ki, əməkdaşlar istər regionlarda, istərsə də paytaxt muzeylərində bərpaya ehtiyacı olan eksponatlara hər zaman böyük diqqət və məsuliyyətlə yanaşır: “Bülbülün Şuşada bərpa edilən ev-muzeyinin eksponatlarına Sabirabad, Gəncə və digər rayon və şəhərlərin tarix-diyarşünaslıq muzeylərində qorunan tarixi-mədəni irs nümunələrinə yeni həyat veriblər. Bərpaçı işi böyük istedad və səbir tələb edir. İşə sevgi və məsuliyyət bu kollektivdə böyük nailiyyətlərin əldə edilməsinə yol açır. Bu məsuliyyət həm də əməkdaşların tariximizə, mədəni irsimizə ehtiramının ifadəsidir. Mərkəz 65 illik fəaliyyəti dövründə 27 min eksponatı bərpa edib. Xalqımızın tarixi-mədəni yaddaşının bu eksponatlarda yaşadığını düşünəndə kollektivin əməyinin dəyərini təsəvvürə gətirmək çətin olmur”.

Sektor müdiri çıxışının sonunda kollektivi əlamətdar yubiley münasibətilə bir daha təbrik etdi, uğurlar arzuladı.

**Lalə Azəri**

# Humanitar əməkdaşlıq: otuz ilin təcrübəsi və inkişafın perspektivləri

## MDB-nin Yaradıcı və elmi ziyalılarının XV Forumunda müzakirə olunub



əvvəli səh. 1-də

Qətnamədə MDB məkanında humanitar əməkdaşlığın 30 illik təcrübəsinin, habelə pandemiya və yeni qlobal çağırışlar şəraitində qarşılıqlı fəaliyyətin müzakirəsinin nəticələrinə əsaslanaraq, Birlik ölkələrinin dillərinin, mədəniyyətlərinin, tarixinin, mədəni irsinin və milli adət-ənənələrinin öyrənilməsi və təbliği üçün əməkdaşlığın genişləndirilməsinin zəruriliyi vurğulanır.

### MDB ölkələri kinostudiyalarının birliyi yaradılacaq

Sənəddə qeyd edilir ki, iştirakçılar MDB ölkələrinin kinostudiyalarının Beynəlxalq Yaradıcılıq Birliyinin yaradılması ideyasını dəstəkləyib, eyni zamanda birgə filmlərin istehsalı və yayımı, festivallarda və beynəlxalq kinoforumlarda MDB ölkələrinin ekran əsərlərinin təbliği sahəsində təşəbbüslərin lehinə çıxış ediblər. Qətnamədə teatr, televiziya, incəsənət və digər yaradıcılıq növləri üzrə beynəlxalq yaradıcı kollektivlərin formalaşdırılmasına yönəlmiş yeni layihələrin işlənib hazırlanmasının vacibliyi də göstərilib.

Elm və təhsil sahəsində innovativ informasiya texnologiyalarının tətbiq olunması, ikili diplom proqramlarının genişləndirilməsi, birgə hazırlıq kurslarının, qrant proqramlarının təşkili, Birlik ölkələri təhsil təşkilatların filiallarının qarşılıqlı açılması,



gənc alimlərin elmi və tətbiqi işlərinə qrant dəstəyi sisteminin inkişafı ilə bağlı təhsil platformaları və proqramlarına sərbəst çıxışın təşviq edilməsi kimi məsələlər vurğulanıb.

MDB ölkələrinin milli ədəbiyyatlarının təbliği və populyarlaşdırılması, qarşılıqlı nəşrlərin və kitabların tərcümələrinin dəstəklənməsi, kitab sənayesinin inkişafı üzrə birgə iş üsullarının axtarılması, MDB məkanında rus dilinin millətlərarası və mədəniyyətlərarası ünsiyyət dili kimi təbliğ edilməsi də qətnamədə əksini tapıb. Gənclərin əməkdaşlığı sahəsində təhsil, mədəniyyət, elm, sahibkarlıq fəaliyyəti, könüllülər hərəkatının inkişafı sahəsində birgə təşəbbüsləri təşviq etmək, həmçinin gənc nəsildə İkinci Dünya müharibəsində sovet xalqının şücaəti ilə bağlı xatirəni yaşatmaq üçün tədbirləri dəstəkləmək qərara alınıb.

### Polad Bülbüloğlu növbəti müddətə DHƏF-nin sədri seçilib

Forumun gedişində “Birlik ulduzları” dövlətlərarası mükafatı laureatlarının təltif edilməsi mərasimi keçirilib. Builki laureatlar arasında Azərbaycandan Xalq rəssamı, heykəltəraş Natiq Əliyev də olub. Gənc azərbaycanlı memar İlqar Manaflı isə “Debütlər Birliyi” mükafatının laureatı olub.

Mükafatları MDB Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondu (DHƏF) İdarə Heyətinin sədri Polad Bülbüloğlu, Rusiya Federasiyası Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy və Özbəkistanın mədəniyyət naziri Ozodbek Nazarbekov təqdim ediblər.

Forum çərçivəsində MDB-nin iştirakçısı olan dövlətlərin Humanitar Əməkdaşlıq Şurası və DHƏF İdarə Heyətinin birgə iclası keçirilib. Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu yenidən (növbəti 2 il müddətinə) DHƏF İdarə Heyətinin sədri seçilib.

Qeyd edək ki, MDB Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondu 2006-cı ildə yaradılıb. Polad Bülbüloğlu 2010-cu ildən DHƏF-yə rəhbərlik edir. Fondun fəaliyyətinin məqsədi mədəniyyət, təhsil, elm, mədəni irsin qorunması, informasiya və kütləvi kommunikasiyalar, idman, turizm, gənclərin təşəbbüsləri sahəsində birgə tədbirlərin (layihələrin) dəstəklənməsi və həyata keçirilməsi yolu ilə MDB-də ümumi humanitar məkanın və mədəniyyətlərarası dialoqun inkişafına kömək etməkdir.

***

MDB-nin iştirakçısı olan ölkələrin Yaradıcı və elmi ziyalılarının Daşkənddə keçirilən XV Forumu çərçivəsində DHƏF-nin layihəsi olan MDB Gənclər simfonik orkestrinin konserti keçirilib.

Əlişir Nəvai adına Özbəkistan Dövlət Akademik Böyük Teatrında gerçəkləşən konsertdə orkestri Rusiyanın Xalq artisti Sergey Skripka, gənc dirijorlar Murtuza Bülbül (Azərbaycan), Əlibek Kabduraxmanov (Özbəkistan) və Rəsul Klıçov (Türkmənistan) idarə ediblər.

Orkestrin ifasında, Azərbaycan bəstəkarı Qara Qarayev də daxil olmaqla, MDB ölkələrindən bəstəkarların əsərləri səsləndirilib.

Sonra teatrın səhnəsinə Azərbaycanın Xalq artisti Polad Bülbüloğlu çıxıb. O, postsovet məkanında tanınan müəllif əsərlərini ifa edib. Tamaşaçılar onun ifasını alqışlarla qarşılayıblar.

# “Böyük Azərbaycan şairi Nizami” kitabı çex oxucuların ixtiyarına verilib

Azərbaycanın Çex Respublikasındakı Səfirliyinin təşkilatçılığı ilə Praqada Nizami Gəncəvinin ədəbi irsinə həsr olunmuş tədbir keçirilib. Tədbirdə dahi şairin 880 illiyi ilə əlaqədar səfirliyin təşəbbüsü və dəstəyi ilə çex dilində işıq üzü görən Yevgeni Bertelsin “Böyük Azərbaycan şairi Nizami” kitabı təqdim edilib.




Çexiya Mədəniyyət Nazirliyinin, elm, mədəniyyət və təhsil ocaqları nümayəndələrinin, diplomatların, həmvətənlərimizin qatıldığı tədbirdə çıxış edən səfir Adış Məmmədov Azərbaycanın böyük mütəfəkkiri və şairi Nizami Gəncəvinin həyat və yaradıcılığı haqqında məlumat verib. Bildirib ki, dünya ədəbiyyatının parlaq nümayəndəsi olan Nizami Gəncəvi bənzərsiz yaradıcılığını ülvi hisslərin, humanizm, xeyirxahlıq, ədalət kimi nəcib keyfiyyətlərin tərənnümünə həsr edib. Şair Gəncədə doğulub və bütün ömrünü bu şəhərdə yaşayıb, ərəb və fars dillərini mükəmməl bilib, yunan tarixi və fəlsəfəsi, astronomiya haqqında müfəssəl məlumata malik olub. Vurğulanıb ki, Nizami Gəncəvinin poemaları onlarla dilə tərcümə edilib, Orta əsrlərdən üzü bu yana Şərqin müxtəlif söz ustaları şairin əsərlərinə nəzirə yaradıblar.

Azərbaycan xalqının öz doğma övladının irsinə həmişə hörmətlə yanaşdığını qeyd edən səfir ölkəmizdə Nizaminin adı və irsinin yaşadılması üçün müvafiq işlərin görüldüyünü diqqətə çatdırıb. Azərbaycan Prezidentinin Sərəncamı ilə 2021-ci ilin ölkəmizdə “Nizami Gəncəvi İli” elan edildiyi bildirilib.

Səfir təqdim edilən kitab vasitəsilə Çexiya oxucularının böyük şairin həyat və yaradıcılığı haqqında daha ətraflı məlumatlarla tanış olacağına, habelə bu kitabın akademik dairələrdə də daha çox araşdırmaları təşviq edəcəyinə ümidvar olduğunu bildirib.

Kitab Azərbaycanda çex dili üzrə mütəxəssis Şəbnəm Əsədova tərəfindən tərcümə edilib. Kitabın redaktoru isə tanınmış dilçi-alim Aleksandra Qonçarenkadır.

Tədbirdə digər çıxış edənlər Nizaminin Azərbaycan və dünya ədəbiyyatına verdiyi töhfələrdən danışıb, onun yaradıcılığının fəlsəfi aspektlərinə toxunublar.

Çexiyalı aktyorlar tərəfindən Nizaminin şeirləri qiraət edilib. Gənc xanəndə Günay İmamverdiyevanın rəhbərliyi ilə muğam üçlüyü Nizami irsinə müraciət etmiş Azərbaycan bəstəkarlarının əsərlərini, muğam və təsniflərimizi ifa edib.

Tədbirin sonunda kitabın nüsxələri iştirakçılara paylanılıb.

# Nizami Gəncəvi Vəqfinin bir yaşı tamam olur

Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin tərənnüm etdiyi bəşəri dəyərləri, ölkəmizin tolerantlıq, qarşılıqlı anlaşma və mədəniyyətlərarası dialoq ənənələrini təbliğ etmək, şairin vəfatından sonra Gəncə-Qarabağ bölgəsində fəaliyyət göstərmiş “Şeyx Nizami Vəqfi”nin mənəvi varisi olaraq bu irsi yaşatmaq məqsədilə yaradılan Nizami Gəncəvi Vəqfinin (NGV) bir yaşı tamam olur.

Vəqf “Nizami Gəncəvi İli” çərçivəsində 2021-ci ilin 24-26 noyabr tarixlərində Bakıda Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən “Nizami Gəncəvi: Mədəniyyətlər arasında körpü” mövzulu Nizami Gəncəvi Beynəlxalq Forumunun iştirakçıları tərəfindən irəli sürülən təklif və qəbul olunan kommünikenin müvafiq müddəaları əsas tutularaq ötən ilin 30 dekabrında təsis edilib.

Vəqfin məqsədi həmçinin Azərbaycanın qədim tarixini, zəngin mədəniyyətini, ədəbiyyatını, xüsusilə Azərbaycanın qədim şəhəri Gəncəni beynəlxalq auditoriyada geniş şəkildə tanıtmaq, Nizami Gəncəvinin ədəbi irsini tədqiq edən xarici və yerli alimlərin elmi mübadiləsini təşviq etmək, yeni tədqiqatların aparılmasına töhfə vermək, bu irsi tədqiq edən alimlər üçün Azərbaycan mərkəzli beynəlxalq əməkdaşlıq platforması yaratmaqdır.

NGV-nin fəaliyyətinin əsas istiqamətlərindən biri Nizaminin ədəbi irsinin beynəlxalq səviyyədə təbliğidir. Vəqf bu məqsədlə Atatürk Universitetinin (Türkiyə) professoru Nimet Yıldırım tərəfindən şairin “Xəmsə”sindən “İskəndərnamə” məsnəvisinin tam mətninin ilk dəfə olaraq fars dilindən türk dilinə tərcüməsinə dəstək göstərib. “Genceli Nizami. İskendername” kitabı Türkiyədə “Dergah Yayınları” tərəfindən çap olunub.

Gənc nəslin milli– mənəvi dəyərlərin daşıyıcısı olaraq yetişdirilməsi məqsədilə NGV həyata keçirdiyi layihələrdə gənclərin yaxından iştirakı üçün şərait yaradır. Gənclərin dünyagörüşünün formalaşmasına, sosial məsuliyyət hissinin və əməkdaşlıq vərdişlərinin aşılanmasına töhfə olaraq “Kəşf et, ünsiyyət qur, inkişaf et!” şüarı ilə “Gənclər konsepsiyası” hazırlanıb.

Vəqf, eyni zamanda regional və beynəlxalq səviyyəli dövlət və qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq çərçivəsində elmi və mədəni layihələrə dəstək vermək, nəticələri nəşrlər və digər vasitələrlə dünya ictimaiyyəti ilə bölüşərək fərqli mədəniyyətlər arasında körpü yaratmağı da qarşıya məqsəd qoyub. Bu məqsədlə Vəqfin Beynəlxalq Ekspertlər Şəbəkəsi (BEŞ) yaradılıb və bu elmi platformaya nüfuzlu elm adamları, ekspert və mütəxəssislərin üzvlüyə qəbulu prosesi davam edir.

Beynəlxalq əməkdaşlığa xüsusi önəm verən NGV bu ilin 1-4 sentyabr tarixlərində “Türk dünyasının mədəniyyət paytaxtı” Bursada 3-cü Beynəlxalq “Baramadan ipəyə” adlı festivala qatılaraq, Bakı Yunus Əmrə İnstitutunun dəstəyi və “Azəripək” MMC-nin tərəfdaşlığı ilə “Kəlağayı: Şəkidən Bursaya doğru uzanan ipək tellər” adlı milli stendi təşkil edib.

# Mədəniyyət Nazirliyində Xorvatiya səfiri ilə görüş

Mədəniyyət naziri Anar Kərimov dekabrın 14-də Xorvatiya Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Branko Zebici qəbul edib.



Görüşdə Xorvatiya ilə Azərbaycan arasında mədəniyyət sahəsində əlaqələrin hazırkı vəziyyəti və gələcək perspektivləri haqqında söhbət açılıb.

Nazir Anar Kərimov iki ölkə arasında əlaqələrin genişləndirilməsi üçün mədəniyyət sahəsində qarşılıqlı tədbirlərin təşkilinin əhəmiyyətini qeyd edib. Bildirib ki, Azərbaycan və Xorvatiyanın sənət adamları, musiqi kollektivləri arasında birbaşa təmasın yaradılması mədəni əməkdaşlıq üçün vacib əhəmiyyət daşıyır.

Səfir Branko Zebic qəbul üçün nazirə minnətdarlığını bildirərək bu görüşün ölkələrimiz arasında mədəniyyət sahəsində əlaqələrin inkişafı baxımından uğurlu bir addım olduğunu diqqətə çatdırıb.

Səfir xorvat şairi və diplomatı Draqo Stambukun Azərbaycan dilində çap olunan “Zefir” şeirlər kitabını Anar Kərimova hədiyyə edib.

Görüşdə mədəniyyət sahəsində əməkdaşlıq, beynəlxalq tədbirlərdə qarşılıqlı iştirakın təmin edilməsi məsələləri ətrafında müzakirələr aparılıb.

# Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu Bursa Uludağ Universiteti ilə əməkdaşlıq edəcək

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu və Bursa Uludağ Universiteti (Türkiyə) arasında əməkdaşlıq protokolu imzalanıb.

Protokolu Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva və Bursa Uludağ Universitetinin rektoru Ahmet Saim Kılavuz imzalayıblar.

Sənəd türk dövlətlərinin mədəni irsinin təbliğ edilməsi məqsədilə birgə layihələrin həyata keçirilməsi, universitetin bu istiqamətdə araşdırma aparan tələbələrinə dəstəyin göstərilməsi kimi müddəaları özündə ehtiva edir.

Fond və universitet arasında Türk dünyasının qədim və zəngin mədəni irsinin qorunması və tanıdılması sahəsində əməkdaşlığın daha da genişləndirilməsini nəzərdə tutulur.



1975-ci ildə əsası qoyulan Bursa Uludağ Universiteti Türkiyənin ən böyük ali təhsil ocaqlarından biridir. Universitetin 15 fakültəsi, 61 mindən artıq tələbəsi var, nəzdində 4 institut, 3 kollec, 15 peşə məktəbi fəaliyyət göstərir.

# “Göygöl” Dövlət Mahnı və Rəqs Ansamblı Qırğızıstanda səhnəyə çıxıb

Qırğızıstanın Karakol şəhərində “Müstəqil Dövlətlər Birliyinin mədəniyyət paytaxtı” estafetinin Sankt-Peterburq (Rusiya) şəhərinə verilməsinə həsr olunan “Karakol-2022” adlı təntənəli mərasim keçirilib.



Azərbaycan, Qazaxıstan, Rusiya, Belarus və Qırğızıstanın 50-dən artıq bədii və musiqi kollektivinin iştirak etdiyi tədbirdə ölkəmizi Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasının “Göygöl” Dövlət Mahnı və Rəqs Ansamblı uğurla təmsil edib.

“Karakol-2022 – Müstəqil Dövlətlər Birliyinin mədəniyyət paytaxtı” ilinə yekun vuran şəhərin meri Ermat Cumayev öz çıxışında il ərzində 20-dən artıq beynəlxalq və respublika əhəmiyyətli tədbir keçirildiyini qeyd edib.

Təntənəli hissədən sonra kollektivlərin hazırladıqları bədii proqram təqdim olunub. Konsertdə “Göygöl” Dövlət Mahnı və Rəqs Ansamblının ifasında bəstəkar və xalq mahnıları, Azərbaycan rəqs nümunələri tamaşaçılar tərəfindən rəğbətlə qarşılanıb.

Tədbirin sonunda Qırğızıstan Prezidentinin İssık-Kul vilayətindəki səlahiyyətli nümayəndəsi Azərbaycan nümayəndə heyətinə fəal iştiraka görə dərin minnətdarlığını bildirib, Gəncə Dövlət Filarmoniyasının rəhbərliyinə təşəkkürnamə təqdim edib.

# Vətənin qəhrəmanları unudulmur

Lənkəran RMİ Lənkəran Şəhər Heydər Əliyev Mərkəzində 44 günlük Vətən müharibəsinə və lənkəranlı şəhidlərə həsr olunan "Zəfər carçıları" adlı sənədli film nümayiş olunub.

"Şəhidlərimiz and yerimizdir" layihəsi çərçivəsində ərsəyə gələn 44 dəqiqəlik filmdə Lənkəranın tarixinə, lənkəranlı gənclərin Vətən müharibəsindəki qəhrəmanlıqlarına və multikultural dəyərlərin qorunub saxlanılmasına, habelə müxtəlif xalqların nümayəndələrinin əsl vətənpərvər kimi "Dəmir yumruq" ətrafında sıx birləşərək doğma torpaqların azad olunmasındakı birgə roluna diqqət çəkilib.

***



Biləsuvar RMİ-nin rəisi Əlisultan Sadıxov, idarənin əməkdaşları və O.Əkbərov adına Uşaq incəsənət məktəbinin kollektivi Vətən Müharibəsi Qəhrəmanı, şəhid polkovnik-leytenant Orxan Əkbərovun doğum günü münasibətilə ailəsini ziyarət ediblər.

***

Masallı RMİ Masallı Rayon Mərkəzi Kitabxanasında Azərbaycanın Milli Qəhrəmanı, Birinci Qarabağ müharibəsi şəhidi Elşad Əhədovun xatirəsinə həsr edilmiş "Qəhrəmanlar unudulmur" adlı tədbir keçirilib. Çıxış edənlər Milli Qəhrəmanın həyatı və şərəfli döyüş yolu haqqında məlumat veriblər.

***



Bərdə RMİ-nin Tərtər rayonu üzrə nümayəndəsi Ceyhun İsmayılzadə və mədəniyyət işçiləri Vətən müharibəsi şəhidi Aysənan Abbasovun anım mərasimində iştirak ediblər. Ceyhun İsmayılzadə şəhid ailələrinin və qazilərin dövlətimiz tərəfindən daim diqqət mərkəzində saxlanıldığını, həmçinin mütəmadi olaraq nümayəndəlik üzrə mədəniyyət müəssisələrində vətənpərvər mövzularda silsilə tədbirlərin keçirildiyini vurğulayıb.

***

Ağstafa RMİ Qazax Tarix-Diyarşünaslıq Muzeyinin əməkdaşları Vətən müharibəsi şəhidi Tural Məmmədovun anım günü ilə bağlı ailəsini ziyarət ediblər.

# Qubada ustad tarzən Əhməd Bakıxanovun yubileyinə həsr olunmuş tədbir

Quba şəhər İncəsənət məktəbində Azərbaycan musiqi mədəniyyətinin görkəmli nümayəndəsi ustad tarzən, pedaqoq, Xalq artisti Əhməd Bakıxanovun (1892-1973) anadan olmasının 130 illiyi qeyd edilib.




Əvvəlcə məktəbin foyesində rəssamlıq şöbəsinin şagirdlərinin əl işlərindən ibarət sərgiyə və Əhməd Bakıxanova həsr edilmiş kitablara baxış olub.

Xaçmaz RMİ-nin rəisi Vüsal Hüseynov çıxış edərək bildirib ki, Əhməd Bakıxanovun yubileyinin dövlət başçısının sərəncamı ilə geniş şəkildə qeyd olunması mədəniyyətimizə, görkəmli incəsənət xadimlərinin xatirəsinə diqqət və qayğının daha bir nümunəsidir.

Dövlət Xalq Çalğı Alətləri Orkestrinin bədii rəhbəri və baş dirijoru, Xalq artisti Ağaverdi Paşayev ustad tarzənin həyat və yaradıcılığından danışıb. Bildirilib ki, Ə.Bakıxanov 1930-cu illərdən Üzeyir Hacıbəylinin dəvəti ilə Azərbaycan Dövlət Konservatoriyasında, daha sonra A.Zeynallı adına Orta İxtisas Musiqi Məktəbində muğamdan dərs deyib. Eyni zamanda Azərbaycan Radiosu nəzdində Xalq çalğı alətləri ansamblının təşkilatçısı və rəhbəri olub. Onun musiqi məktəbləri üçün tərtib etdiyi muğam proqramı tar tədrisində bu gün də istifadə olunur.

Tədbirin bədii hissəsində Quba şəhər musiqi və incəsənət məktəbləri xalq çalğı alətləri ansambllarının, xanəndələr Əlövsət Səlimovun və Kənan Nizamovun ifaları dinlənilib.

Əməkdar artist, tarzən Sahib Paşazadənin çıxışı böyük maraqla qarşılanıb.

# Lənkəranda məktəblilərin arxivə ekskursiyası

Dövlət Arxivinin Lənkəran filialı tərəfindən şəhərdəki Rasim Məmmədov adına 5 nömrəli orta məktəbin və Teymurbəy Bayraməliyev adına 2 nömrəli tam orta məktəbin yuxarı sinif şagirdləri üçün ekskursiya təşkil olunub.



Milli Arxiv İdarəsindən bildirilib ki, məktəblərin direktorları Bəsirə Əzimova və Gülnarə Seyfullayevanın rəhbərliyi ilə təşkil olunmuş ekskursiyalarda Dövlət Arxivinin Lənkəran filialının direktoru Rəfail Rzayev arxivin fəaliyyət istiqamətləri o cümlədən filialın əhatə etdiyi Astara, Lerik, Yardımlı və Masallı rayon dövlət arxivləri haqqında, həmçinin sənədlərin dövlət arxivlərinə qəbulu, mühafizəsi, uçotu, rəqəmsallaşdırılması və elektron xidmətlər haqqında məlumat verib.

Filialın arxivçisi Afaq Hüseynova şagirdləri arxivdə sənədlərin mühafizə şəraiti ilə əyani tanış edib, onları maraqlandıran sualları cavablandırıb.

# Şuşa – Qarabağın incisi, Zəfərimizin rəmzi




Kürdəmir Regional Mədəniyyət İdarəsi (RMİ) Kürdəmir Rayon Mərkəzi Kitabxanasında "Salam, Şuşa" adlı oxucu konfransı keçirilib. Kitabxananın oxucuları Şuşaya və Ulu öndər Heydər Əliyevə həsr edilmiş şeirlər səsləndiriblər. Sonda kitabxananın təşkil etdiyi tədbirlərdə fəal iştirak edən oxucular fəxri fərmanla təltif edilib.

Beyləqan Rayon Mədəniyyət Mərkəzində "Şuşa İli" çərçivəsində Xalq yazıçısı İlyas Əfəndiyevin "Mahnı dağlarda qaldı" tamaşası təqdim edilib. Tamaşa Mədəniyyət Mərkəzinin "Gənclik" Xalq teatrı tərəfindən səhnələşdirilib.

Kürdəmir RMİ-nin rəisi Faiq Xudanlı və Beyləqan Rayon İcra Hakimiyyəti başçısının müavini Yeganə Məmmədovanın da iştirak etdiyi tədbirdə çıxış edənlər Azərbaycanın dilbər guşəsi Qarabağın və Şuşanın işğaldan azad olunmasının tarixi əhəmiyyətindən və azad edilmiş ərazilərdə quruculuq və bərpa işləri, habelə Şuşada keçirilən çoxsaylı mədəni tədbirlərdən söz açıblar.

RMİ-nin İmişli Rayon Heydər Əliyev Mərkəzində "Qarabağın incisi, əziz Şuşa" adlı tədbir keçirilib. Tədbirdə mədəniyyət və incəsənət ustalarının ifalarında vətənpərvərlik mövzusunda şeirlər, mahnılar səsləndirilib, Şuşa haqqında videoçarxlar nümayiş olunub.

***



Ağstafa RMİ Ağstafa Rayon Mərkəzi Kitabxanası, rayon Tarix-Diyarşünaslıq Muzeyi, şəhər 1 saylı Folklor klubu və Hüseyn Arifin Ev-Muzeyinin birgə təşkilatçılığı ilə "2022-ci il – Şuşa İli" adlı tədbir keçirilib. Rayonun mədəniyyət işçilərinin mövzu ətrafında çıxışları dinlənilib, məktəblilərin ifasında şeirlər səsləndirilib.

Qazax şəhər 2 nömrəli Uşaq musiqi məktəbində "Musiqi beşiyimiz – Şuşa" adlı tədbir təşkil olunub. Məktəbin direktoru Ramil Qurbanov çıxış edərək Şuşanın Azərbaycan mədəniyyətinə bəxş etdiyi görkəmli ifaçılar və bəstəkarlar haqqında məlumat verib.

Qazax Tarix-Diyarşünaslıq Muzeyində "Şuşa Azərbaycanın qazandığı Qələbənin rəmzidir!" adlı tədbir keçirilib. Tədbirdə "Şuşa İli" ilə bağlı stend nümayiş etdirilib.

Tovuz Dövlət Rəsm Qalereyasında isə "Mədəniyyət paytaxtımız uşaqların gözü ilə" adlı rəsm sərgisi təşkil edilib. Sərgidə dərnək üzvlərinin mövzu ilə bağlı əl işləri nümayiş olunub.

***



Gəncə RMİ Samux rayon MKS-nin Oxuculara xidmət şöbəsinin təşəbbüsü ilə "Şuşa xalçası" adlı tədbir keçirilib. Çıxışlarda qeyd edilib ki, Şuşa şəhəri tarixən Qarabağın əsas xalçaçılıq mərkəzlərindən olub. Burada xalça toxuculuğu XIX əsrdən yüksək inkişaf dövrünü yaşayıb. Şuşada toxunan xalçalar xarici ölkələrə də ixrac olunub. Xalça tacirlərinin xüsusi marağına səbəb olan bu nümunələr rəng həllinə və kompozisiya quruluşuna görə fərqlənib. Sonda "Şuşa xalçaları" adlı sənədli film nümayiş olunub.

# "Zərərdən uzaq – sağlam həyata yaxın"



Şəki RMİ Şəki şəhər uşaq incəsənət, 3 və 4 nömrəli uşaq musiqi məktəblərində müəllimlərin və şagirdlərin iştirakı ilə narkomaniyaya qarşı maarifləndirici tədbirlər keçirilib. Qeyd olunub ki, narkomaniya ilə mübarizə sağlam cəmiyyətin formalaşması baxımından əsas məqsəd və vəzifələrdəndir. Azərbaycanın dövləti sağlam nəslin formalaşması istiqamətində mühüm addımlar atır və narkomaniya ilə mübarizə də davamlı xarakter daşıyır.

***

Xaçmaz RMİ Şabran Rayon Mədəniyyət Mərkəzinin filialı olan Xaqani Poeziya evində "Narkomaniyaya yox deyək!" mövzusunda tədbir keçirilib. Çıxış edənlər bu yöndə keçirilən tədbirlərin əhəmiyyətindən danışaraq məktəbliləri bu bəladan uzaq durmağa səsləyiblər.

***

Gəncə RMİ Gəncə şəhər MKS-nin 15 saylı kitabxana filialında yeniyetmələr və gənclər arasında narkomaniyaya qarşı təbliğat və maarifləndirmə işlərinin aparılması ilə əlaqədar olaraq "Narkomaniyaya birgə yox deyək!" başlığı altında tədbir keçirilib. Çıxışlarda narkomaniyanın müasir dövrdə bütün bəşəriyyəti narahat edən ən ciddi sosial bəlalardan olduğunu söyləyib, xüsusilə məktəbliləri bu problemdən daim uzaq olmalarını tövsiyə ediblər.

***



Masallı RMİ Masallı Tarix-Diyarşünaslıq Muzeyində "Zərərdən uzaq – sağlam həyata yaxın" başlığı altında tədbir keçirilib. Muzeyin direktoru Əntiqə Tağıyeva yeniyetmə və gənclər arasında narkomaniya ilə bağlı bilik, mövqe və davranışların formalaşdırılması, həmçinin bu bəla ilə mübarizədə ictimai qınaq mexanizminin daim işlək vəziyyətdə olması üçün ciddi səy göstərməyin vacibliyindən danışıb. Bildirilib ki, sağlam düşüncəli insanlar dərk etməlidir ki, narkomaniya aradan qaldırılması mümkün olmayan fəsadlar törədir.

**Hazırladı: N.Məmmədli**

# Şair Yusif Həsənbəyin 90 illiyi qeyd edildi



Dekabrın 13-də Beynəlxalq Muğam Mərkəzində şair, dramaturq, nasir, tərcüməçi Yusif Həsənbəyin 90 illik yubileyinə həsr olunmuş tədbir keçirildi.

Tədbirdə Azərbaycan Yazıçılar Birliyinin rəhbərliyi, tanınmış ədəbiyyat və mədəniyyət xadimləri, ziyalılar, şairin poeziyasını sevənlər iştirak edirdilər.

Yazıçılar Birliyinin katibi İlqar Fəhminin aparıcılığı ilə keçən gecədə AYB-nin sədri Xalq yazıçısı Anar, Milli Məclisin deputatları akademik Nizami Cəfərov, yazıçı Aqil Abbas çıxış edərək şairin yaradıcılığı haqqında fikirlərini bölüşdülər.

Qeyd olundu ki, ruhu hər zaman cavan olan şairin özünəməxsus üslubu, dəstxətti var. Müəllifin bir sıra şeirlərinə qəlboxşayan musiqilər bəstələnib. Ana dilimizin gözəlliyini tərənnüm edən şair bədii yaradıcılıqla yanaşı, tərcüməçi kimi də fəaliyyət göstərir.

Yusif Həsənbəy tədbirin təşkilatçılarına və iştirakçılarına minnətdarlığını bildirdi, yeni şeirlərini oxudu. Gecədə şairin sözlərinə yazılmış musiqilər səsləndirildi.

Yusif Həsənbəy 1932-ci il dekabrın 26-da Quba rayonunda anadan olub. Quba Pedaqoji Texnikumu, Azərbaycan Pedaqoji İnstitutu (indiki ADPU) və Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutunda təhsil alıb. "Azərnəşr"də ədəbi redaktor, "Bakı" qəzetində ədəbi işçi, tərcüməçi işləyib. 1994-cü ildən AYB Quba bölməsinin rəhbəridir.

"Çay dənizə tələsir", "Unutmaram o günləri", "İnsan ömrü", "Məhəbbətli dünyamız", "İşığın istisi", "Sualtı döyüşlər" və s. kitabların müəllifi olan Yusif Həsənbəyin "Ayı kürkü" və "Dağlarda işıq" əsərləri əsasında televiziya tamaşaları hazırlanıb. "Sehrli üzük", "Yıxılanı qaldır" pyesləri müxtəlif teatrlarda tamaşaya qoyulub.

**Lalə**

# Xalq teatrının "Qış sovqatı"

Ağdaş Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə Ağdaş Rayon Mədəniyyət Mərkəzinin nəzdində fəaliyyət göstərən Xalq teatrının təqdimatında "Qış sovqatı" adlı əyləncəli proqramlara başlanılıb.



Layihənin məqsədi yerlərdə əhalinin, xüsusilə gənclərin, yeniyetmə və uşaqların asudə vaxtının səmərəli təşkilidir.

İlk şou-proqram rayonun Qarağan Şıxlar kəndində təqdim olunub. Nağıl qəhrəmanlarından ibarət tamaşa nümayiş etdirilib, intellektual oyunlar keçirilib və qaliblərə müxtəlif hədiyyələr təqdim edilib.

Layihə gələn ilin mart ayına qədər davam etdiriləcək. Növbəti şou-proqramın Ağdaşın Orta Ləki kəndində təqdim edilməsi nəzərdə tutulub.

# Kəlbəcərdə mina partlayışı nəticəsində şəhid olan gizir torpağa tapşırılıb

İşğaldan azad edilən Kəlbəcər rayonunun Çıraq kəndi ərazisində düşmənin basdırdığı minanın partlaması nəticəsində şəhid olan gizir Zöhrab Məmməd oğlu Hümbətov torpağa tapşırılıb.

Tovuz rayonunun Aşağı Quşçu kəndində, şəhidin ailəsinin yaşadığı evin qarşısında keçirilən mərasimdə şəhidin yaxınları ilə yanaşı, hərbçi yoldaşları, rəsmi şəxslər, rayon sakinləri iştirak ediblər.

Zöhrab Hümbətovun nəşi Aşağı Quşçu kənd qəbiristanlığında torpağa tapşırılıb.

Dekabrın 14-də Kəlbəcərin Çıraq kəndi ərazisində səkkiz nəfər – təmir-tikinti işləri ilə məşğul olan şirkətin dörd əməkdaşı və təxliyə ilə bağlı hadisə yerinə yollanan dörd hərbçi minaya düşüb. Nəticədə yeddi nəfər, o cümlədən üç hərbçi müxtəlif dərəcəli bədən xəsarətləri alıb, Zöhrab Hümbətov isə həlak olub. 1984-cü il təvəllüdlü Zöhrab Hümbətovun üç övladı var.

***

Qeyd edək ki, dekabrın 15-də bir qrup media təmsilçisinin Kəlbəcərdə mina partlayışlarının baş verdiyi əraziyə səfəri təşkil edilib.



Torpaqlarımızın azad olunması ilə nəticələnən Vətən müharibəsindən ötən 2 ildə 250-dən çox azərbaycanlı mina partlayışları nəticəsində həlak olub və ya ciddi xəsarətlər alıb.

Bu yaxınlarda təkcə Laçın rayonunda müharibənin başa çatmasından sonrakı dövrdə erməni silahlı qüvvələri tərəfindən gizli şəkildə basdırılmış 1400-dən çox mina aşkarlanaraq zərərsizləşdirilib. Kəlbəcər rayonunun Çıraq kəndində də minaların Ermənistan silahlı qüvvələri tərəfindən 2020-ci ilin dekabr ayında basdırılması ehtimal edilir.

# Mədəniyyət naziri kino ictimaiyyəti ilə görüşüb

*əvvəli səh. 1-də*

Anar Kərimov Kino Agentliyinin yaradılması istiqamətində iki ilə yaxın aparılan işləri mərhələlərlə diqqətə çatdırıb. Bildirib ki, Prezident İlham Əliyevin 2022-ci ilin 20 aprel tarixli sərəncamı ilə Mədəniyyət Nazirliyinin tabeliyində Azərbaycan Respublikasının Kino Agentliyinin (ARKA) yaradılması kinematoqrafiya sahəsində dövlət siyasətinin həyata keçirilməsinin təkmilləşdirilməsi, Azərbaycan kinematoqrafiyasının beynəlxalq rəqabətə davamlılığının təmin edilməsi, yerli istehsal və yayım infrastrukturunun müasirləşdirilməsi məqsədilə atılan çox mühüm bir addımdır. 2022-ci ilin 16 noyabr tarixində dövlət başçısının fərmanı ilə ARKA-nın Nizamnaməsinin də təsdiq edildiyini bildirən nazir hazırda agentliyin praktik fəaliyyətə başlaması üçün müvafiq işlərin görüldüyünü deyib.

Yerli və müştərək kino istehsalının dəstəklənməsi, kino mədəniyyətinin təbliğinin təşkili, kinematoqrafiya müəssisələrinin və kino sənayesi iştirakçılarının fəaliyyətinin, eləcə də kinematoqrafiya sahəsində yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqi sahələrində ARKA-nın qarşısında duran vəzifələr barədə söhbət açılıb.





Görüş iştirakçıları ölkədə kino sənayesinin inkişafı və milli kinematoqrafiyanın təşviqi üçün vacib olan belə bir təsisatın yaradılmasına görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

ARKA-nın səmərəli fəaliyyəti üçün həm dövlət, həm də özəl sektor üzrə kinematoqrafçıları birgə əməkdaşlığa çağıran nazir bu istiqamətdə uğurlu layihələrin təqdim ediləcəyinə ümidvar olduğunu deyib. Bildirib ki, agentliyə təqdim edilən layihələrin hər biri diqqətdə saxlanılacaq.

Görüşdə kino sənayesinin istehsal prosesindən filmlərin kütləvi yayımının təşkilinə, bu sahə üzrə normativ bazadan praktik fəaliyyətədək müxtəlif sahələr ilə bağlı bir sıra fikirlər, o cümlədən tənqidi mülahizələr səslənib, bu xüsusda boşluqların olduğu vurğulanıb.

Səslənən fikirlərə münasibət bildirən Anar Kərimov kinonun ümumi inkişafına xidmət edəcək bütün rəy və təklifin nəzərə alınacağını deyib. Nazir eyni zamanda ölkədə kino sənayesinin inkişaf etdirilməsi məqsədilə bu sahədə mövcud qanunvericilik və normativ aktlarla bağlı məsələlərin araşdırılması, boşluqların aradan qaldırılması üçün təkliflərin verilməsində kino ictimaiyyətini daha təşəbbüskar və fəal olmağa çağırıb.

Nazir vurğulayıb ki, kino sahəsində səmərəli fəaliyyətə mane olan problemləri aradan qaldıraraq, bir neçə istiqamətdə – həm Azərbaycanın yerli bazarı, həm də beynəlxalq festivallar və xarici kino bazarında nümayiş üçün ən uğurlu filmlərin istehsalı bizim üçün prioritet vəzifələrdən biridir.

44 günlük Vətən müharibəsini əks etdirən filmlərin çəkilişinə, vətənpərvərlik mövzusunda yeni ekran əsərlərinin meydana gəlməsinə dəstək veriləcəyi və şərait yaradılacağı xüsusi qeyd edilib. Bu istiqamətdə beynəlxalq əməkdaşlığın, müştərək layihələrin əhəmiyyətini vurğulayan Anar Kərimov əlavə edib ki, həyata keçiriləcək birgə layihələrdə həm bədii, həm də texniki heyətin əksəriyyət etibarilə Azərbaycan kinematoqrafçılarından ibarət olması əsas şərtdir.

Bədii, sənədli kino ilə yanaşı, milli animasiya filmlərinin istehsalına da toxunan nazir bu sahənin inkişafına xüsusi diqqətin ayrılacağını deyib.

Görüşün sonunda Anar Kərimov ölkənin kino ictimaiyyəti ilə belə geniş tərkibdə, işgüzar və səmimi atmosferdə ünsiyyətdən məmnunluğunu bildirərək, Mədəniyyət Nazirliyinin, mədəni həyatın digər sahələri kimi, milli kinematoqrafiyanın, kino sənayesinin inkişafına zəmin və təkan olacaq bütün fikirləri, təklif və tənqidləri dinləməyə, qarşılıqlı müzakirələrə hər zaman açıq olduğunu vurğulayıb. Nazir görüş iştirakçılarına və onların simasında ölkəmizdə kino sahəsində çalışan hər kəsə uğurlar arzulayıb.

# Dombra – qəlb sazından çıxan səda

## “Astana Opera”nın Bakıya qastrolu



*əvvəli səh. 1-də*

Azərbaycan musiqisinin zənginliyinə, sənət xadimlərinin böyük istedad və peşəkarlığına diqqət çəkən, tamaşaçılarımızın zövq və tələbkarlığına bələd olduqlarını deyən ifaçılar onların qarşısında çıxışı həyəcanla və böyük sevgi ilə gözlədiklərini diqqətə çatdırdılar.

Teatr orkestrinin dirijoru Əməkdar artist Ruslan Baymurzin ilk olaraq Bakıya və bakılılara heyranlığını dilə gətirdi. Pandemiyadan sonra belə böyük heyətlə məhz Azərbaycana səfər etdiklərini vurğulayan musiqi rəhbəri maraqlı, rəngarəng proqramlarından bəhs etdi. Bildirdi ki, proqrama daha çox qazax bəstəkarlıq məktəbi yetirmələrinin klassik nümunələrini, xüsusən də solo ifaçı kimi dombra aləti üçün yazılmış əsəri daxil ediblər: “Proqramda məşhur dünya bəstəkarlarının da əsərlərinə yer verilib. Orkestrin Bakı konsertinə salınmasa da, Azərbaycan bəstəkarlarından daha çox Fikrət Əmirovun əsərlərini ifa edirik. Onun musiqisində dərin bir zəriflik, əzəmət və doğmalıq var”.

Qonaq teatrın solistləri – Qazaxıstanın tanınmış vokalçıları, Əməkdar artistlər Güldanə Aldadaşova, Saltanat Muradbekova, Medet Çotobayev və başqaları da Bakıda isti qarşılanmadan, qədim və müasir şəhərimizdən məmnunluqla söz açdılar. Bildirildi ki, Azərbaycanda keçirilən musiqi festivalları, vokalçılar arasında ənənəvi müsabiqələr barədə məlumatlıdırlar.



Tamaşaçıların sevgi və alqışlarını səxavətlə pay verdikləri möhtəşəm konsertdən öncə səhnəyə çıxan Qazaxıstanın ölkəmizdəki səfiri Serjan Abdıkarimov iki ölkə arasındakı diplomatik əlaqələrdən danışdı. Qastrolun da diplomatik münasibətlərimizin 30 illiyi münasibətilə reallaşdığını bildirdi.

Diplomat “Astana Opera”nın Azərbaycana qastrol səfərini mədəniyyət sahəsindəki sıx əməkdaşlığımızın bariz nümunəsi kimi dəyərləndirdi. O, konsert proqramının təşkilinə görə iki ölkənin mədəniyyət nazirliklərinə, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının və “Astana Opera”nın rəhbərliyinə və kollektivinə minnətdarlığını bildirdi.

Rəngarəng və dolğun proqramlı konsertdə Qazaxıstanın Əməkdar artisti Ruslan Baymurzinin dirijorluğu ilə sənətçilər Qazaxıstan və Qərbi Avropa bəstəkarlarının əsərlərini səsləndirdilər.

Qazaxıstan bəstəkarlarının əsərlərindən (Əhməd Jubanov və Lətif Həmidinin “Abay”, Sıdık Muhammadjanov və Kavatina Sərkənin “Aysulu” operalarından ariyalar) seçdikləri parçalar, həmçinin milli musiqi alətləri olan dombra üçün yazılmış əsərlərdən hissələr maraqla qarşılandı.

Proqrama həmçinin Avropa və Rusiya bəstəkarlarının məşhur musiqi əsərlərindən parçalara da yer verilmişdi. İstər milli, istərsə də dünya bəstəkarlarının əsərlərindən seçilən nümunələr fərqli səs tembri və texnikasına malik qazax solistlər – Qazaxıstanın Əməkdar artistləri Azamat Jeltırquzov, Jupar Qabdullina, Saltanat Axmetova, Bibigul Januzak, Medet Çotabayev, həmçinin Saltanat Muratbekova, Sayan İsin, Talqat Qaleyev, Şınqıs Rasılxan, Guldana Aldadosovanın təqdimatında maraqlı ahəng yaratdı.

Qazax xalqının qəhrəmanlıq, sevgi və mübarizə ruhunu özündə əks etdirən musiqi əsərləri – Mukan Tulebayevin “Birjan-Sara” operasından deyişmələr, Axmet Jubanovun “Abay” operasından Aydarın ariyası, Nurqisə Tlandiyevin “Əlkisa” operasından parçalar alqışlarla qarşılandı.

Qeyd edək ki, Qazaxıstanın birinci Prezidenti Nursultan Nazarbayevin təşəbbüsü ilə yaradılan “Astana Opera” Dövlət Opera və Balet Teatrı 2013-cü ildə fəaliyyətə başlayıb. “Astana Opera” möhtəşəm binası, opera və balet truppaları ilə Mərkəzi Asiyanın ən böyük teatrıdır.

**Həmidə Nizamiqızı**

# Mərkəzi İncəsənət Məktəbində Ümummilli liderə həsr olunmuş tədbir

Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbində Ümummilli lider Heydər Əliyevin anım gününə həsr olunmuş tədbir təşkil olunub.



Əvvəlcə məktəbin müəllimi musiqişünas Pərvin Səfərlinin Ümummilli liderin həyatı, müasir Azərbaycanın qurucusu kimi gördüyü işlərlə bağlı hazırladığı videoslayd təqdim olunub.

Daha sonra təqdim edilən musiqi proqramında Z.Bağırovun “Prelüd”, F.Əmirovun “Prelüd”, T.Quliyevin “Lirik mahnı”, M.Maqomayevin “Azərbaycan” və digər əsərlər, şagird və müəllimlərdən ibarət kamera ansamblının (bədii rəhbər Nigar Cavadova) ifasında F.Bədəlbəylinin “Ave Mariya” əsəri səslənilib.

Anım mərasimində məktəbin direktoru Əməkdar artist Əziz Qarayusifli Ulu öndərin Azərbaycan dövləti və xalqı qarşısında tarixi xidmətləri, mədəniyyətimizə diqqət və qayğısı haqqında danışıb.

Heydər Əliyevin çıxışları və müxtəlif vaxtlarda verdiyi müsahibələr əsasında hazırlanmış videomateriallar nümayiş olunub.

# Məktəb-studiya şagirdlərinin böyük bəstəkarın yubileyinə ərməğanı

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Orta ixtisas musiqi məktəb-studiyası Fikrət Əmirovun 100 illik yubileyinə həsr olunmuş konsert təşkil edib.



Məktəb-studiyanın müəllimi musiqişünas, Şəfəq Hacıyeva çıxış edərək Fikrət Əmirovun yaradıcılığı və musiqi mədəniyyətimizə töhfələrindən söz açıb.

Konsertdə bəstəkarın fortepiano üçün “12 miniatür” silsiləsindən “Barkarola”, “Marş”, “Aşıqsayağı”, variasiyalar, I və II ekspromtlar, habelə “Fortepiano və violin üçün ballada”, “Xatirə” əsərləri məktəb-studiyanın şagirdləri Cəmilə Sadıxova, Rauf Bağırzadə, Səid Güləliyev, Şəhla Yusibova, Solmaz Əliyeva, Hüseyn Quliyev tərəfindən ifa olunub.

Əməkdar müəllimlər – məktəb-studiyanın piano ixtisası pedaqoqları Nərgiz Mansurova, Ayişə Əliyeva və Dilarə Salayeva, violin ixtisası üzrə Naira Qulamova, vokal üzrə Ofeliya Axundova, habelə beynəlxalq müsabiqələr laureatları Nuranə Zeynalova, Nəzrin Əmirli, Fəqan Həsənli və zərb alətləri üzrə Firuz Hüseynovun yetirmələri olan şagirdlər dinləyiciləri Fikrət Əmirov dühasının sehri ilə tanış ediblər.

Konsertdə solo nömrələrlə yanaşı, ansambl nümunələri də ifa olunub. Beynəlxalq müsabiqələr laureatları – pianoçu Davud Ağalar və violin ifaçısı Yusuf Məmmədlinin təqdimində “Ballada” dinləyiciləri dahi bəstəkarın melanxolik, duyğulu daxili aləminə aparıb.

Proqramda Fikrət Əmirovun “Laylay”, “Baharımsan”, “Səhər” filmindən Aslanın mahnısı, ilk lirik-psixoloji operamız olan “Sevil”dən Dilbərin ariyası kimi məşhur nömrələr Gülnarə Salmanova, Rafiq Mirzəyev, Emiliya Ağakişiyeva, Etibar Əsgərzadə tərəfindən təqdim olunub.

Sonda məktəb-studiyanın 7-ci sinif şagirdi Məhəmmədəli İbrahimov ksilofonda və 6-cı sinif şagirdi Rüfət Məmmədov marimbada Fikrət Əmirovun “Gözün aydın” musiqili komediyasından rəqsi ifa ediblər.

# Klassik ifalar səhnəsində

Azərbaycan Teatr Xadimləri İttifaqının (ATXİ) təşkilatçılığı ilə keçirilən “Milli klassika” adlı tamaşa festivalı yekunlaşmaq üzrədir. Festivalda 11-i dövlət teatrı olmaqla ümumilikdə 13 tamaşa iştirak edir.

Dekabrın 14-də festival proqramına uyğun olaraq Azərbaycan Dövlət Kukla Teatrında Azərbaycan xalq nağılı əsasında səhnələşdirilən “Məlikməmməd” tamaşası (rejissor Anar Məmmədov) göstərilib.

Həmin gün AXTİ-nin əsas səhnəsində Lənkəran Dövlət Dram Teatrının “Casus” (müəllif Kamal Abdulla, rejissor Anar Babalı) tamaşası müsabiqədənkənar nümayiş olunub.

Dekabrın 15-ni isə festivalın “tələbə günü” də saymaq olar. Həmin gün Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Teatr sənəti fakültəsinin III kurs tələbələrinin iştirak etdiyi tamaşalar – M.F.Axundzadənin əsərləri əsasında “Şeytan müsafirləri” (kurs rəhbəri Əməkdar artist Yaqut Paşazadə) və S.S. Axundovun “Tamahkar”ı (kurs rəhbəri Xalq artisti Məmmədsəfa Qasımov) təqdim olunub.

Gün Sumqayıt Dövlət Dram Teatrında səhnələşdirilən M.F.Axundzadənin “Hacı Qara” komediyasının nümayişi ilə bitib. Əsasən gənclərdən ibarət aktyor heyəti olan tamaşanın quruluşçu rejissoru və musiqi tərtibatçısı Xalq artisti Firudin Məhərrəmovdur.

Xatırladaq ki, 10-16 dekabr tarixlərini əhatə edən festival ittifaqın 125 illiyinə həsr olunub. Yaradıcılıq proseslərini fəallaşdırmaq, teatrların mübadiləsini təmin etmək və klassik səhnə nümunələrinə geniş meydan vermək məqsədi daşıyan festivalın münsiflər heyəti üç nominasiyada qalibləri müəyyən edəcəklər.

# Akademik Musiqili Teatrda premyera – “Sehrli nəğmə”




Dünya Azərbaycanlılarının Həmrəyliyi və Yeni il bayramı ərəfəsində Azərbaycan Dövlət Akademik Musiqili Teatrında uşaqlar və gənc tamaşaçılar üçün nəzərdə tutulan beynəlxalq layihə – “Sehrli nəğmə” musiqili tamaşasının premyerası olacaq.

“Cartier Evi”nin əməkdaşlığı və Mədəniyyət Nazirliyinin dəstəyi ilə ərsəyə gələn səhnə əsəri 18 dekabrda teatrsevərlərin ixtiyarına veriləcək.

Akademik Musiqili Teatra dəvət olunan Rusiyanın Moskva və Sankt-Peterburq şəhərlərindən olan teatr mütəxəssislərinin hazırladığı tamaşanın bəstəkarı Diana Hacıyeva, libretto müəllifi dramaturq Polina Korotıç, quruluşçu rejissoru Anton Morozovdur.

Süjet xəttinin əsasında ümumbəşəri mövzu dayanan tamaşada əsərin baş qəhrəmanı xəyalən öz nağıl dünyasından real aləmə keçid etməkdə çətinlik çəksə də, sonradan hər işin öhdəsindən çox asanlıqla və böyük məharətlə gəlir.

Tamaşanın ideya müəllifi və yaradıcı direktoru Viktoriya Motornyuk, quruluşçu dirijoru Əməkdar incəsənət xadimi Fəxrəddin Atayev, bədii tərtibatçısı və geyim üzrə rəssamı Alina Korıtova, rəqslərin quruluşçusu Maks Petrov, işıq üzrə rəssamı Konstantin Binkin, xormeysteri Əməkdar artist Vaqif Məstanov, dirijoru Səməd Süleymanlı, konsertmeysteri Prezident təqaüdçüsü Kamil Həsənov, rejissor assistenti Afər Tağıyevadır.

Layihənin art-direktoru Miroslav Bayda, yaradıcı prodüseri Anastasiya Şevçenko, icraçı prodüseri Yelizaveta Lyubimova, folklor üzrə məsləhətçiləri Fərhad Fərzəli, Mariya Nəzərova, əsərin bədii tərcüməsinin müəllifi isə Aytən İsmixanovadır.

Tamaşada Əməkdar artistlər Ələkbər Əliyev, İqrar Salamov, aktyorlar Gülnarə Abdullayeva, Ülviyyə Əliyeva, Hüseyn Əlili, Zaur Əliyev, Diana Hacıyeva və başqaları iştirak edəcəklər.

Səhnə əsərində səsləndirilən laylaların musiqiləri Əməkdar incəsənət xadimi Zakir Bağırova, sözləri isə Xalq şairi Bəxtiyar Vahabzadəyə məxsusdur.

# Heydər Əliyev Sarayının 50 illiyi tamam olub

Dekabrın 14-də Heydər Əliyev Sarayının fəaliyyətə başlamasının 50-ci ildönümü  tamam olub.




Bu münasibətlə Heydər Əliyev Sarayının rəhbərliyi və əməkdaşları Fəxri xiyabana gələrək Ümummilli lider, müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı ziyarət edilib, xatirəsi ehtiramla anılıb.

Sonra Şəhidlər xiyabanına gələn Heydər Əliyev Sarayının kollektivi ölkəmizin azadlığı və suverenliyi uğrunda canlarından keçmiş Vətən övladlarının xatirəsini hörmətlə anıb, məzarları üzərinə tər çiçəklər düzüb, "Əbədi məşəl" abidə kompleksinin önünə əklil qoyublar.

Paytaxtımızın memarlıq simasında xüsusi yeri olan Heydər Əliyev Sarayı ölkənin baş səhnəsi, əsas konsert salonudur. Sarayın tikintisi Heydər Əliyevin qayğısı nəticəsində reallaşıb. Saray 1972-ci il dekabrın 14-də öz qapılarını tamaşaçıların üzünə açıb. 2004-cü ildən öz qurucusunun adını daşıyır. İllər boyu ictimai-siyasi, mədəni-kütləvi tədbirlərə ev sahibliyi edən, Azərbaycan xalqının həyatında önəmli hadisələri, tədbirləri səhnəsindən geniş tamaşaçı kütləsinə çatdıran Heydər Əliyev Sarayı bu gün də qaynar həyatını yaşayır.

# "Hüseyn Cavid: biblioqrafik göstərici" çapdan çıxıb

Hüseyn Cavidin Ev-Muzeyinin yeni nəşri – "Hüseyn Cavid: biblioqrafik göstərici" adlı kitab çapdan çıxıb. Hüseyn Cavidin (1882-1941) anadan olmasının 140 illiyi münasibətilə hazırlanan biblioqrafik göstərici böyük şair və dramaturqun həyat və yaradıcılığının əsas tarixlərinin xronologiyası verilib, çap olunmuş əsərləri, haqqında kitablar, dövri mətbuatda dərc edilmiş məqalələr təsnif edilib.

Kitabda ədibin müxtəlif illərdə yazdığı məktubları, səhnəyə qoyulmuş əsərlərinin afişa və proqramlarının biblioqrafik təsvirinə də yer ayrılıb. Göstəricinin köməkçi informasiya bölümündə ədibin əsərlərinin sərlövhələrinin, biblioqrafiyada adı keçən müəlliflərin soyadlarının əlifba göstəricisi tərtib edilib.

Kitabın redaktoru Hüseyn Cavidin Ev-Muzeyinin baş direktoru Əməkdar mədəniyyət işçisi, filologiya elmləri doktoru Gülbəniz Babaxanlı, tərtibçi-müəllifi həmin muzeyin elmi katibi filologiya üzrə fəlsəfə doktoru Validə Həsənovadır.

Biblioqrafik göstərici 2005-ci ildə muzey tərəfindən tərtib edilmiş biblioqrafik  nəşrin davamı olaraq hazırlanıb. Mənbə 2022-ci ilə qədər çap edilmiş əsərləri özündə ehtiva edir.

# Xüsusi təyinatlı qəhrəman

Onlar Vətəni seçdilər. Vətənin bütövlüyünü hər şeydən vacib saydılar. Onlar övladlarına və gələcək nəsillərə əbədi iftixar ünvanı – şanlı Zəfər miras qoydular. Torpaqlarımızın azadlığı uğrunda son damla qanına qədər döyüşərək şəhidlik zirvəsinə ucalan qəhrəmanlarımızı tanıtmaqda davam edirik. Bu yazıda Vətən Müharibəsi Qəhrəmanı, polkovnik-leytenant Anar Əliyev haqqında söz açacağıq.

Anar Vaqif oğlu Əliyev 1980-ci il avqustun 28-də Kəlbəcər rayonunun Boyaqlı kəndində müəllim ailəsində anadan olub. Müəllim olan atası və anası təyinatla əlaqədar Ağdərə rayonunun Göyarx kəndinə (indiki Tərtər rayonunun) köçürlər. Anar Əliyev ilk təhsilini bu kənddə alır. Erməni separatçıların terrorçu əməlləri üzündən digər soydaşlarımız kimi, onun ailəsi də 1988-ci ildə Tərtər rayonunun Bəyimsarov kəndinə pənah gətirir.

Kiçik yaşlarından hərbçi peşəsinə böyük maraq göstərən Anar 1995-1997-ci illərdə Cəmşid Naxçıvanski adına Hərbi liseydə, 1997-2001-ci illərdə isə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbində təhsil alır. Elə həmin ildən Bakıda yerləşən N saylı kəşfiyyat briqadasında leytenant kimi hərbi xidmətə başlayır. Sonra xidmətini Salyan rayonunda, Naxçıvanda davam etdirir. 2008-ci ildə kapitan, 2012-ci ildə mayor hərbi rütbəsi alır. Hərb sahəsində biliklərini daha da dərinləşdirmək üçün 2012-2014-cü illərdə Silahlı Qüvvələrin Hərbi Akademiyasında əlavə təhsil alır. Müdafiə Nazirliyinin əmrinə əsasən, Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun sərəncamına göndərilir. Müdafiə Nazirliyinin 2015-ci il tarixli əmrinə əsasən, müstəsna xidmətlərinə görə vaxtından əvvəl polkovnik-leytenant hərbi rütbəsi alır.

2018-ci il mayın 20-dən 27-nə qədər Şərur rayonunun Günnüt kəndinin işğaldan azad olunması əməliyyatında iştirak edir, nəticədə adıçəkilən kəndlə yanaşı, Ağbulaq yüksəkliyi, Qızılqaya dağı və Qaraqaya dağı azad olunur, Dərələyəz mahalının Arpa kəndi isə Azərbaycan Ordusunun atəş nəzarəti altına keçir.



Döyüşlərdə xüsusi fərqləndiyinə görə Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən, Anar Əliyev "Şücaətə görə" medalı ilə təltif edilir.

2020-ci ilin 27 sentyabrında Vətən müharibəsi başlanan zamanı A.Əliyev Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunda xüsusi təyinatlı briqadanın komandiri idi. O, torpaqlarımızın düşməndən azad olunmasında iştirak etmək üçün komandanlığa müraciət edir. Oktyabrın 11-də ön cəbhəyə yollanan A.Əliyev  Zəngilan, Cəbrayıl, Xocavənd və Füzuli istiqamətində gedən döyüşlərə qatılır.  Oktyabrın 21-də ona Xocavənd-Şuşa istiqamətində Azərbaycan Ordusunun Şuşaya daxil olmasında böyük rol oynayacaq strateji yüksəkliklərin, xüsusilə, "772 metr" yüksəkliyinin, Xocavənd rayonunun Tuğ kəndinin azad edilməsi həvalə edilir. Döyüşçü yoldaşlarının dediklərinə görə, o, əvvəlcə, sağ qolundan, sonra isə gözündən yaralanır. Leytenant Adil Əfəndiyev ona ilk tibbi yardım edir. Bu zaman düşmən tərəfindən atılan güllə A.Əfəndiyevin ürəyinə dəyir, həmçinin əl qumbarası onların yaxınlığında partlayır. Hər iki komandir oradaca şəhadətə yüksəlirlər.

A.Əliyevin Nigar və Əli adlı iki övladı Vətənə yadigar qalıb.

Şəhidin atası Vaqif Əliyev qeyd edir ki, Anar həm ölkə daxilində, həm də xaricdə bir sıra təlimdə iştirak edib: "O, şəhid olana qədər mənim övladım idi. Ancaq indi o, bütün xalqın övladıdır. Allah bütün şəhidlərimizə rəhmət eləsin".

Anası Səkinə Bayramova vurğulayır ki, Anar orta məktəbdə oxuduğu zaman şəkilləri şərəf lövhəsini bəzəyərdi. İndi oğlumun şəkli soyuq daşlara vurulub: "Bir ana kimi oğul itkisinə dözmək çox çətindir. Ancaq Anarla qürur duyuram. O, Vətən, torpaq uğrunda qəhrəmancasına vuruşaraq hər kəsə qismət olmayan ali mərtəbəyə yüksəldi".

Şəhidin həyat yoldaşı Vüsalə Əliyeva bildirir ki, hərbçi xanımı olmaq asan deyil: "O, olduqca mərhəmətli, xeyirxah insan, qəlbində Vətənə böyük sevgisi olan zabit idi. Anarla ailə qurmaq həyatımın ən gözəl addımıdır. Bir də həyata gəlmək şansım olsaydı və bilsəydim ki, Anar şəhid olacaq, yenə də onu seçərdim".

A.Əliyev oktyabrın 25-də Bakıda II Fəxri xiyabanda torpağa tapşırılıb. Ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb, "Vətən uğrunda", Şuşa, Xocavənd və Füzulinin azad olunmasına görə medalları ilə təltif edilib.

Şəhidin şəxsi əşyaları ailəsi tərəfindən Milli Azərbaycan Tarixi Muzeyinin Vətən müharibəsi fonduna təhvil verilib. Gəncə şəhərinin Gülüstan qəsəbəsində müvəqqəti yerləşən Kəlbəcər rayonu 2 nömrəli tam orta məktəbə A.Əliyevin adı verilib. Tərtər şəhərinin küçələrindən biri onun adını daşıyır.

Allah rəhmət eləsin.

**Nurəddin**

# Milli Qəhrəmanın doğum günündə məzarı ziyarət edilib

Azərbaycanın Milli Qəhrəmanı Əliyar Əliyevin (1957-1992) doğum günündə məzarı ziyarət edilib.

Əliyar Əliyev 1957-ci il dekabrın 14-də Qubadlı rayonunun Qəzyan kəndində anadan olub. 1979-cu ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu bitirərib, bir müddət rayonda bədən tərbiyəsi müəllimi işləyib.

Birinci Qarabağ müharibəsi başlayanda könüllü olaraq Azərbaycan Ordusu sıralarına qoşulub. Əvvəlcə taborun kəşfiyyat bölməsinin komandiri olub, sonra tabora komandirlik ona həvalə edilib. Onun başçılıq etdiyi tabor 1992-ci ilin payızında Laçın rayonunun kəndlərinin işğaldan azad edilməsi uğrunda döyüşlərdə şücaət göstərib. Oktyabrın 3-də Laçının iki kilometrliyində "Tikanlı zəmi" yüksəkliyi uğrunda döyüşdə tabor komandiri Əliyar Əliyev və onun sürücüsü Əlisadət Ağayev qəhrəmancasına həlak olublar. Onlar Qubadlıda eyni məzarlıqda dəfn olunublar.

Şəhidin oğlu Emin Əliyev bildirib ki, ermənilər Qubadlını işğalda saxladığı müddətdə Əliyar Əliyevin qəbirüstü daşlarını söküb aparıb. Qubadlı işğaldan azad edildikdən sonra Milli Qəhrəman Əliyar Əliyev və onunla bir yerdə şəhid olan Əlisadət Ağayevin məzarları bərpa olunub.




Şəhidin ailə üzvləri məzarı ziyarət etdikdən sonra Qəzyan kəndində ermənilərin xarabalığa çevirdiyi evlərinə baş çəkiblər.

# Şəhid tələbə-memarın yubileyi təhsil aldığı universitetdə qeyd olunub

Birinci Qarabağ müharibəsi şəhidi Fuad Əsədovun (1972-1992) 50 illik yubileyi vaxtilə təhsil aldığı Azərbaycan Memarlıq və İnşaat Universitetində (AzMİU) qeyd olunub.

Fuad Qərib oğlu Əsədov 25 noyabr 1972-ci ildə Cəbrayıl rayonunun Quycaq kəndində anadan olub. 1989-cu ildə AzMİU-nun (o vaxt İnşaat Mühəndisləri İnstitutu) Memarlıq fakültəsinə daxil olub. 1992-ci ilin mart ayında, III kursda oxuyarkən könüllü olaraq Vətən torpaqlarının müdafiəsinə yollanıb. Cəbrayıl rayonunda ərazi müdafiə batalyonuna yazılıb. Yurd yerlərimizi zəbt etmək istəyən erməni silahlı dəstələri ilə döyüşlərdə rəşadət göstərib. 1992-ci il iyunun 28-də növbəti döyüşlərin birində şəhid olub.

Anım tədbirində şəhidin ailə üzvləri, döyüş yoldaşları, AzMİU-nun rəhbərliyi, Memarlıq fakültəsinin müəllim və tələbələri iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə Fuad Əsədovun təhsil aldığı fakültədəki barelyefi önünə əklil qoyub, xatirəsini ehtiramla yad ediblər.

Fuad Əsədov memarlıqla yanaşı, rəssamlığa da maraq göstərib, həmçinin bədii yaradıcılıqla məşğul olub, şeirlər yazıb.

Şəhid tələbə-memarın çəkdiyi əsərlərdən və Memarlıq fakültəsinin tələbəsi Nabat Əsgərovanın əl işlərindən ibarət sərgiyə baxış keçirilib.




Sonra AzMİU tələbələrinin ifasında Fuad Əsədovun şeirləri, vətənpərvərlik ruhlu nəğmələr əsasında hazırlanmış bədii kompozisiya nümayiş etdirilib. Bədii kompozisiyada şəhidin həyatını, döyüş yolunu əks etdirən səhnələr də yer alıb.

Tədbirin sonunda şəhidin anası Solmaz Əsədova, Memarlıq fakültəsinin dekanı professor Zahidə Məmmədova, AzMİU-nun prorektoru Orxan Naqdiyev, Fuad Əsədovun komandiri olmuş Səxavət Mirzəyev çıxış edərək onun haqqında xatirələrini bölüşüblər. Vətən övladlarının nəsillərə örnək həyat yolunun xalqımızın qəhrəmanlıq salnaməsinin şanlı səhifələri olduğu vurğulanıb.

# Mahir tarzən, nəzəriyyəçi-pedaqoq



**Ön sırada: Qarabəy Qarabəyov, Allahyar bəy Zülqədərov, Məşədi Hüseynqulu Ramazanov, Mirzə Mənsur; arxa sırada: Rəhim bəy Xəlilbəyli, Məşədi Süleyman Mənsurov**

XX yüzilliyin əvvəllərindən musiqi mədəniyyətimizin inkişafına töhfələr verən sənətkarlardan biri də Əməkdar incəsənət xadimi, görkəmli tarzən Mirzə Mənsur Mənsurov olub. O, tar ifaçılığı ilə yanaşı, bu sənətin tədrisini də həyata keçirib. Sənətkarı anadan olmasının 135 illiyi münasibətilə yada salırıq.

Mənsur Məşədi Məlik oğlu Mənsurov 1887-ci ildə Bakı şəhərində musiqiçi ailəsində dünyaya göz açıb. Mənsur ibtidai molla məktəbini qurtarır və on bir yaşında mədrəsəyə daxil olur. Kiçik yaşlarından musiqiyə həvəs göstərir. Günlərin birində dərs zamanı Mənsur taxta parçasını tar kimi sinəsinə sıxaraq "Uzundərə" havasını zümzümə edir. Bunu görən molla onun ayaqlarını falaqqaya saldırır. Buna görə də o, mədrəsəni birdəfəlik tərk edir. Taleyini həmişəlik musiqiyə bağlayır. Əlbəttə, bu heç də təsadüfi deyildi. Çünki Məşədi Məlikin ailəsi musiqi aləmi ilə sıx bağlı olub. Atası tar, kamança, tütək, böyük qardaşı Məşədi Süleyman tar, anası Soltan bəyim isə saz çalırdı. Mənsur Mənsurov məhz belə bir mühitdə böyümüşdü.

O, xatirələr kitabında uşaqlıq illərini belə xatırlayır: "On beş yaşım olanda atam mənə bir qoltuq sazı aldı. Çox keçmədi, saz çalmağı öyrəndim. Hərdən qardaşım Süleymanın tarını da götürüb oyun havalarını çalardım. Atam musiqişünas olmaqla bərabər, həm də çox qonaqpərəst idi. İrandan, Qarabağdan və başqa yerlərdən Bakıya gələn musiqiçilər bizim evə düşərdilər. Hacı Hüsü, Məşədi İsi, Mirzə Sadıq (Sadıqcan), Əbdülbaqi Bülbülcan kimi məşhur sənətkarlar Bakıya toy məclislərinə dəvət olunanda həftələrlə atamın qonağı olardılar. Bizim evə Bakıda yaşayan xanəndə Baladadaş, tarzən Zeynal, Mirzə Fərəc və başqaları da tez-tez gələr, çalıb-çağırardılar".

Mirzə Mənsur bu görkəmli sənətkarların ifalarını dinlədikcə musiqiyə qəlbən bağlanırdı. Onun ilk tar müəllimi isə Mirzə Fərəc olur. Tar çalmağı öyrətməklə bərabər, həm də muğamların adları, onların mənası, hissə və şöbələri haqqında da maraqlı bilgilər əldə edir.

Beləliklə, Mirzə Mənsur 20-25 yaşlarında kamil tarzən kimi tanış-qohum məclislərinə dəvət olunur. 1920-ci ildən o, "Şərq konservatoriyası"nda, 1923-cü ildən isə Üzeyir Hacıbəylinin təşkil etdiyi Dövlət türk musiqi məktəbində tar dərsi deyir. 1926-cı ildə musiqi məktəbi konservatoriyaya birləşdirilir. Mənsur Mənsurov konservatoriyaya dəvət edilir. Burada 1946-cı ilədək pedaqoji fəaliyyət göstərir. İstedadlı tar müəllimi kimi Üzeyir bəyin ən yaxın köməkçilərindən olur.

Araşdırmalarda qeyd edilir ki, o həm də tar alətinin quruluşunda (pərdələrin qoşulmasında, tar aşıqlarının möhkəmləndirilməsində və s.) bəzi mütərəqqi dəyişiklik edib. Hətta yeni quruluşda tar da hazırlayıb. Onun 1934-cü ildə yeni quruluşda hazırladığı iki tardan biri Parisdə, digəri isə İstanbulda incəsənət alətləri sərgisində müvəffəqiyyətlə nümayiş etdirilib.

Gənclik illərində olduğu kimi, ömrünün ixtiyar çağlarında da "Rast", "Bayatı-İsfahan" muğamlarını özünəməxsus ustalıqla ifa edib. "Mahur-hindi" muğamını səsləndirən zaman dinləyicilərə elə gəlirmiş ki, tarı 30-35 yaşında bir tarzən sanballı mizrabları, iti barmaqları ilə dindirir. Xüsusilə tarın cingənə simlərində Sadıqcanın mizrablarını vuranda dinləyiciləri məftun edərmiş.

Görkəmli musiqişünas, Əməkdar incəsənət xadimi F.Şuşinskinin "Azərbaycan xalq musiqiçiləri" kitabında Ü.Hacıbəyli tərəfindən 1934-cü ildə Mirzə Mənsura verilən xasiyyətnamədən də söz açılır: "... Mənsur Mənsurov 1926-cı ildən indiyə kimi Azərbaycan Dövlət Konservatoriyasında tar müəllimi vəzifəsində çalışır. Bu dövr ərzində bir tar müəllimi kimi özünü ən işgüzar və ən yüksək ixtisas sahibi kimi göstərib. Bundan əlavə, o, tələbələr tərəfindən muğamların bədii cəhətdən düzgün çalınmasına, kamil öyrənilməsinə böyük əmək sərf edib. Eyni zamanda xalq çalğı alətləri üçün proqram tərtib edilməsində, tarın və başqa alətlərin yenidən qurulmasında, onların gözəl səslənməsi tədbirlərində fəal iştirak etmişdir. O, bütün müəllimlik fəaliyyəti illərində özünü fəal və hörmətli bir pedaqoq kimi göstərmişdir".



Mahir tarzən ölkəmizdə istedadlı musiqiçilər nəslinin (Səid Rüstəmov, Xurşid Ağayeva, oğlu Ənvər Mənsurov, Rəşid Əfəndiyev və b.) yetişməsində böyük səy göstərib. Şair ürəkli sənətkar həm də bir çox qəzəl və qoşmalar müəllifi kimi də tanınıb.

Mənsur Mənsurovun pedaqoji fəaliyyəti və incəsənət sahəsindəki xidmətləri hökumət tərəfindən yüksək qiymətləndirilir. Ona 1940-cı ildə "Əməkdar incəsənət xadimi" fəxri adı verilir.

Araşdırmalarda o da qeyd edilir ki, Mirzə Sadıqcanın ifaçılıq ənənələrini yaşadan Mənsur Mənsurov həm də muğam nəzəriyyəçisi olub. "Rast", "Zabul", "Dügah" muğamları 1936-cı ildə ilk dəfə onun ifasında gənc bəstəkarlar Tofiq Quliyev və Zakir Bağırov tərəfindən nota köçürülüb. Tarzənin adı muğamat dərsliyinin ilk proqramını tərtib etmiş sənətkar kimi də tarixə düşüb.

80 illik ömrünün 60 ilini musiqiyə həsr edən Mənsur Mənsurov 1967-ci ildə vəfat edib.

**Savalan Fərəcov**

# Azərbaycan şərqşünaslığı Şərq-Qərb dialoqu kontekstində

## BDU-nun Şərqşünaslıq fakültəsinin 100 illiyi

Dekabrın 14-də Bakı Dövlət Universitetinin (BDU) Şərqşünaslıq fakültəsinin 100 illik yubileyinə həsr olunmuş "Azərbaycan şərqşünaslığı Şərq-Qərb elmi-mədəni və ictimai-siyasi dialoqu kontekstində" mövzusunda beynəlxalq elmi konfrans keçirilib.




Konfransın açılışında çıxış edən rektor Elçin Babayev Şərqşünaslıq fakültəsinin 100 illik yubileyinin ölkənin ilk ali təhsil ocağı olan BDU üçün əlamətdar olduğunu bildirib. Qeyd edib ki, fakültənin elmi bazasının formalaşmasında Sankt-Peterburq və Kazan universitetlərinin alimlərinin xüsusi xidmətləri olub. Bu sırada keçmiş SSRİ Elmlər Akademiyasının akademikləri Nikolay Marr, İvan Meşşaninov, görkəmli şərqşünas alim Vasili Bartold, şərqşünas – türkoloqlar Aleksandr Samoyloviç, Nikolay Aşmarin, Anastasi Romaşkeviç və Əziz Qubaydulinin adları çəkilə bilər. Bu görkəmli alimlərin yetirmələri Azərbaycan şərqşünaslığını inkişaf etdiriblər.

Rektor diqqətə çatdırıb ki, hazırda fakültədə ərəb, türk, fars dilləri və ədəbiyyatları ilə yanaşı, ibri, urdu, Çin, yapon, Koreya dilləri də tədris olunur. Fakültənin məzunları arasında peşəkar tərcüməçilər, səriştəli diplomatlar, nüfuzlu ictimai-siyasi xadimlərin sayı kifayət qədərdir.

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva çıxış edərək Şərqşünaslıq fakültəsinin yetirmələrinin ümumtürk birliyinə verdikləri töhfədən söz açıb, fondun fəaliyyəti haqqında danışıb.

Şərqşünaslıq fakültəsinin dekanı Aydan Xəndan fakültənin 100 illik tarixindən bəhs edib, yubileyə həsr olunan konfransa 300-ə yaxın məruzə-tezisin təqdim olunduğunu diqqətə çatdırıb.

Tədbirdə daha sonra Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin baş direktoru akademik Rafael Hüseynov, BDU-nun Türk filologiyası kafedrasının professoru Jalə Əliyeva, Nizami Gəncəvi adına Daşkənd Dövlət Pedaqoji Universitetinin rektoru Abdulqafor Kirgizbayev, Ankara Universitetinin elmi işlər üzrə prorektoru Mustafa Fənər, Daşkənd Dövlət Şərqşünaslıq Universitetinin prorektoru Avazbek Vahidov, Varşava Universiteti Şərqşünaslıq fakültəsinin dekanı professor Pyotr Taraka və başqaları çıxış ediblər.

Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Pakistan, İraq, Polşa, Macarıstandan da tədqiqatçıların qatıldığı beynəlxalq elmi konfrans işini bölmə iclasları ilə davam etdirib.

# Bu muzeydə 300-dən çox növdə minerallar toplanıb

Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) zəngin mineral eksponatların toplandığı muzey fəaliyyət göstərir. Mineralogiya muzeyində 56 ölkədən 300-dən çox növdə 6600-dək mineral nümunəsi nümayiş etdirilir. Onların əksəriyyəti nadir minerallardır.







Muzeyin direktoru, ADNSU-nun Faydalı qazıntı yataqlarının geologiyası və işlənməsi kafedrasının dosenti Ağamehdi Ağayev bildirib ki, mineral nümunələrinin xeyli hissəsi Azərbaycanın bölgələrində olan yataqlardan götürülüb. Qarabağ bölgəsində zəngin mineral yataqları mövcuddur. Həmin yataqlardan götürülən mineral nümunələrinin tərkibi olduqca zəngindir.

Muzeydə mineral nümunələrinin adı, kimyəvi tərkibi və yatağı qeyd edilib və kataloqu hazırlanıb. Burada tərkibində qızıl, gümüş və digər nadir materiallarla zəngin olan mineral nümunələri də toplanıb. Muzey Ukrayna, Rusiya, Türkiyə, Orta Asiya ölkələrinin elmi qurumları ilə əməkdaşlıq edir. Həmin ölkələrdən müxtəlif növdə mineral nümunələri gətirilir və tədqiq olunur.

Universitetin alim və tələbələri öz elmi tədqiqatlarında muzeyin imkanlarından istifadə edirlər. Universitetə gələn xarici ölkə alimləri, tədqiqatçılar, digər qonaqlar da muzeyi ziyarət edərək burada nümayiş etdirilən mineral nümunələri, onların tərkibi ilə maraqlanırlar.

# Özbək kinosuna üçgünlük baxış




Xəbər verildiyi kimi, 7-9 dekabr tarixlərində Nizami Kino Mərkəzində Azərbaycan Mədəniyyət Nazirliyinin dəstəyi, Özbəkistanın Azərbaycandakı Səfirliyinin təşkilatçılığı ilə Özbəkistan filmlərinin nümayişi keçirildi. Üç gün ərzində kinosevərlər özbək kinosunun bədii və sənədli ekran nümunələrini izləmək imkanı qazandılar. Seyr etdiyim filmlər haqqında qısa qeydləri oxucularla bölüşmək istərdim.

Nümayişin ilk günü "Fəridənin iki min mahnısı" (rejissor Yolkin Tuyçiyev) kinodramına baxış keçirildi. Filmin leytmotivini ailə-məişət zəminində baş verən ziddiyyətlər, gender bərabərsizliyi təşkil edir. Həmçinin gərgin hadisələr fonunda XX əsrin əvvəllərində Özbəkistanda baş verən ictimai-siyasi problemlərdən, vətəndaş müharibəsindən bəhs olunur. Filmin qəhrəmanlarının həyat mövqeyi, fərdi düşüncə və psixologiyası rejissorun məntiqli yozumunda incəliklə cilalanır, dövrün acınacaqlı mənzərəsi yaradıcı heyət tərəfindən peşəkarlıqla təqdim edilir, tamaşaçıların ekranda cərəyan edən hadisələrə diqqət kəsilməsinə əsas yaradır.

Filmin ilk kadrlarından hadisələri naməlum qadının ifasındakı mahnı müşayiət edir. İctimai bərabərsizliyin hökm sürdüyü dövrdə cəmiyyətdə yeri olmayan, köləliyin qurbanına çevrilən beş qadının kədərli həyat hekayəsini ardıcıl səslənən, daha çox ağını xatırladan mahnı nəql edir, müəyyən qədər dialoqları əvəzləyir, sözsüz kadrlarda personajların durumunu şərh edir, hadisələrin məzmununu daha dərindən anlamağa imkan yaradır. Gərginliklə dolu kadrlar izləndikcə boz mühitdə yaşamağa məhkum olan qadınların acınacaqlı vəziyyəti, hüquqsuzluğu, kədərli yaşayış tərzi sivil həyata, təhsilə, mənəvi yüksəlişə həsəd çəkdirir.




Özbəkistanın ucqar dağ kəndində yaşayan, şəhərdəki çaxnaşmalardan xəbərsiz olan altı personajın (beş qadın və onların ərinin) sözsüz, bəzən də qısa dialoqlarında müasirlərinin faciəsini görürük. Gərgin hadisələrin fonunda bütün dövrlər üçün sivil münasibətlərin labüdlüyü, təhsilin, maariflənməyin əhəmiyyəti, ictimai-mədəni mühitin davamlılığı və qorunması mesajı ötürülür. Məhz bu mənada xalqların yaxın-uzaq keçmişini əks etdirən, düşündürücü mövzuları tamaşaçılara təqdim edən müəllif kinosunun nəsillərin tərbiyəsində rolu böyükdür.

"Reys 101" filmdə (rejissor Əkrəm Şahnəzərov) 2001-ci ilin 11 sentyabrında ABŞ-da baş verən terror hadisəsi zamanı Özbəkistan-Amerika reysi ilə uçan "Özbəkistan Hava Yolları" şirkətinə məxsus "Boinq-757" təyyarəsinin təyin olunmuş aeroporta (Nyu-York) enişinin təxirə salınması üzərində qurulub. Filmdə təyyarənin pilotu və heyət üzvlərinə geri dönmə və yaxud hər hansı bir yaxın əraziyə eniş etmə əmri verilməsindən, lakin təyyarənin yanacaq ehtiyatı azaldığına görə heyətin və sərnişinlərin qarşılaşdığı çətin vəziyyətdən, ani yaranan gərgin hadisələrə rəğmən təyyarənin kapitanı Zərif Səidəzimovun (aktyor Həşim Arslanov) qəhrəmanlığından, sərnişinləri və heyət üzvlərini sağ-salamat yerə çatdırmasından bəhs edilir.

Filmdə dramatik hadisələrin şərhini (baş qəhrəman Zərif Səidəzimovun simasında) insan mənəviyyatının üstünlüyü, şəxsiyyət tamlığının, peşə sevgisinin və məsuliyyətinin vacibliyi fonunda izləyirik. Düzgün seçilmiş aktyor heyəti real hadisələrin şərhini dolğun çatdırmaqla kinonun həyat üçün vacib olduğunu bir daha vurğulayır.




Tamaşaçıların maraqla izlədiyi növbəti ekran əsəri "Baron-2. Qayıdış" bədii filmi (rejissor Rüstəm Saqdiyev) oldu. Filmdə XXI əsrdə yaxın Şərqdə (Bağdadda) baş verən gərgin hadisələrdən, Özbəkistan kəşfiyyatçısının (aktyor Fərhad Mahmudov) timsalında xüsusi xidmət orqanları nümayəndələrinin missiyasının mürəkkəbliyindən bəhs edilir. Ekran əsərində, müharibə cinayətkarlarının dinc insanların başlarına gətirdiyi faciələrlə yanaşı, XXI əsrin bəlasına çevrilən virtual aləmin fəsadları və onun tələsinə düşən insanların (əsasən də qadınların) yaşadığı acınacaqlı hadisələr də təsvir olunub.

Faciələrlə dolu qəddar mühitdə məhəbbət motivinin olması (baş qəhrəmanların simasında), ailə dəyərlərinin üstün tutulması, vətənpərvərlik missiyasının ali məqsədə çevrilməsi dünyanın xilası kimi xarakterizə edilir, xeyirlə şərin mübarizəsində bu kimi yüksək mənəvi üstünlüklərə malik insanların qalib olacağı və dünyanı müharibə cinayətkarlarından qoruyacağı göstərilir.

Bədii ekran əsərləri ilə paralel olaraq təqdim olunan sənədli filmlər də mövzusuna, həmçinin sənədli kino estetikası ənənələrini yüksək şəkildə əks etdirdiyinə görə maraqla izlənildi.

Kinorejissor Eldar Məmmədovun ekranlaşdırdığı "Əbədi dostluq və qardaşlıq" sənədli filmi Özbəkistanla Azərbaycanın dostluq münasibətlərindən, iki ölkə arasında siyasi, mədəni əlaqələrdən bəhs edir.

"Maqsud Şeyxzadə" bədii-sənədli ekran əsərində isə milliyyətcə azərbaycanlı olan Özbəkistan şairi, yeni özbək ədəbiyyatının əsasını qoyanlardan biri, dünya klassiklərinin əsərlərini özbək dilinə tərcümə edən ədəbiyyatşünas alim Maqsud Şeyxzadənin keşməkeşli ömür yolundan söhbət açılır. Onun həyat və yaradıcılığı maraqlı rejissor traktovkasında (quruluşçu rejissor və ssenari müəllifi Nurilla Narzullayev), operator (Müzəffər Yusupov) işində diqqətə çatdırılır. Maqsud Şeyxzadənin bioqrafiyası, məramı, həyat mövqeyi ekranda sözlə təsvirin sintezində (montaj rejissoru Najot Qasımov) orijinal, maraqlı kadrlarla təqdim olunur. Bu da kino bilicilərinin (rejissor-operator-montaj) mövzuya böyük diqqətlə yanaşmasından, şairin əziz xatirəsini qəlblərdə, düşüncələrdə əbədiləşdirmək istəyindən xəbər verir.

Bir sözlə, Özbəkistan filmlərinə üçgünlük baxış zamanı kinosevərlər aktual, düşündürücü, vacib mövzuları izləməklə qardaş respublikanın kinematoqrafçıları ilə birlikdə sənət bayramı əhval-ruhiyyəsini yaşamış oldular.

**Şəhla Əmirli**
**kinoşünas**

## Xatirə təqvimi — 17-20 dekabr

### Azərbaycan

**17 dekabr 1905** – Xalq şairi Osman Sarıvəlli (Osman Abdulla oğlu Qurbanov; 1905 – 3.7.1990) Qazax rayonunun Sarıvəlli (İkinci Şıxlı) kəndində anadan olub. Şairin "Gətir, oğlum, gətir!" poeması XX əsr Azərbaycan poeziyasının ən gözəl nümunələrindəndir. Sözlərinə mahnılar yazılıb.

**17 dekabr 1924** – Filologiya elmləri doktoru, mətbuat xadimi, Əməkdar jurnalist, professor Şirməmməd Ağaməmməd oğlu Hüseynov (1924 – 24.6.2019) Şəkidə doğulub. Mətbuat tariximizin, Azərbaycan Xalq Cümhuriyyətinin, M.Ə.Rəsulzadə, Ü.Hacıbəyli irsinin öyrənilməsi və təbliğində böyük xidmətləri var.

**17 dekabr 1987** – Tanınmış rəngkar Fərhad İbrahim oğlu Hacıyev (29.8.1929 – 1987) vəfat edib. Azərbaycanda bərpa rəssamlığının əsasını qoyub.

**17 dekabr 1993** – Xalq yazıçısı, dramaturq, ictimai xadim, Sosialist Əməyi Qəhrəmanı Mirzə Əjdər oğlu İbrahimov (28.10.1911 – 1993) vəfat edib. "Gələcək gün", "Böyük dayaq" romanları, "Həyat", "Kəndçi qızı" pyesləri və s. əsərlərin müəllifidir.

**17 dekabr 1994** – Bakıda, Respublika Sarayında Xalq rəssamı Səttar Bəhlulzadənin anadan olmasının 85-ci ildönümünə həsr edilmiş təntənəli gecə keçirilib. Azərbaycan Dövlət İncəsənət Muzeyində rəssamın sərgisi açılıb. Prezident Heydər Əliyev yubiley tədbirlərində iştirak edib.

**17 dekabr 2018** – Prezident İlham Əliyev böyük dramaturq, şair, yazıçı Cəfər Cabbarlının 120 illiyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.

**18 dekabr 1928** – Tanınmış xanəndə Qulu Rüstəm oğlu Əsgərov (1928 – 11.6.1987) Salyan rayonunda doğulub. Muğam və xalq mahnılarının bənzərsiz ifaçısı olub, opera tamaşalarında Məcnun (Ü.Hacıbəyli – "Leyli və Məcnun"), Şah İsmayıl (M.Maqomayev – "Şah İsmayıl") və s. rollarda çıxış edib.

**18 dekabr 1930** – Tarix elmləri doktoru, professor Süleyman Sərdar oğlu Əliyarlı (1930 – 16.1.2014) Beyləqan rayonunun Şahsevən kəndində anadan olub. "Azərbaycan tarixi üzrə qaynaqlar", "Azərbaycan türklərinin etnogenezi" və s. əsərlərin müəllifidir.

**18 dekabr 1934** – Şair, dramaturq, publisist Teyyub Qurban (Teyyub Yarməmməd oğlu Qurbanov; 1934-2018) anadan olub.

**18 dekabr 1954** – Tanınmış teatrşünas, rejissor Şaiq Cabir oğlu Səfərov (1954 – 27.1.2022) Bakıda anadan olub. Müxtəlif teatrlarda çalışıb, Azərbaycanda beynəlxalq teatr tədbirlərinin təşkilində yaxından iştirak edib, xaricdə teatr forumlarında ölkəmizi təmsil edib.

**18 dekabr 1957** – Yazıçı, dramaturq, şair, Əməkdar incəsənət xadimi Əyyub Cəbrayıl oğlu Abbasov (1905-1957) vəfat edib. Zəngəzur qəzasının Şəki kəndində doğulub. "Zəngəzur" romanı, "Şəfəq", "Bahar nəğməsi" və s. pyeslərin müəllifidir. Bakı Teatr Məktəbinin direktoru olub.

**18 dekabr 1980** – Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbi yaradılmasının 60 illiyi ilə əlaqədar Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif edilib.

**18 dekabr 2000** – Prezident Heydər Əliyev 1898-ci ildə Bakıda çəkilmiş kinosüjetlərin ilk kütləvi nümayişinin keçirildiyi tarixin – 2 avqustun kino işçilərinin peşə bayramı – Azərbaycan Kinosu Günü elan edilməsi barədə sərəncam imzalayıb.

**18 dekabr 2006** – Prezident İlham Əliyev Bakı şəhərində İstiqlal muzeyinin yaradılması və İstiqlal abidəsinin ucaldılması haqqında sərəncam imzalayıb.

**19 dekabr 1921** – Azərbaycanın və SSRİ-nin Xalq rəssamı, Dövlət mükafatı laureatı Mikayıl Hüseyn oğlu Abdullayev (1921 – 21.8.2002) Bakıda anadan olub. "Çəltikçi qızlar", "İmadəddin Nəsimi" və s. məşhur əsərlərin, "Dədə Qorqud" dastanı, M.Füzulinin "Leyli və Məcnun" poemasının nəşrlərinə illüstrasiyaların, "Nizami" metro stansiyasının bədii tərtibatının müəllifidir. "Hindistan" silsiləsinə görə Cəvahirləl Nehru mükafatına layiq görülüb.

**19 dekabr 1947** – Əməkdar incəsənət xadimi, rejissor, dramaturq Rəhman Balarza oğlu Əlizadə (1947 – 16.3.2013) Bakıda doğulub. Gənclər Teatrında, Azərbaycan Dövlət Kukla Teatrında baş rejissor işləyib. 20-dən çox pyesin müəllifidir.

**19 dekabr 1950** – Xalq artisti Gülşən Ağadadaş qızı Qurbanova (1950 – 17.11.2006) anadan olub. Gənc Tamaşaçılar Teatrında çıxış edib. Kinoda, televiziya tamaşalarında yaddaqalan obrazlar yaradıb.

**19 dekabr 2007** – Prezident İlham Əliyev böyük bəstəkar, pedaqoq Qara Qarayevin anadan olmasının 90 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.

**19 dekabr 2007** – Prezident İlham Əliyev Bakı şəhəri Suraxanı rayonunda Atəşgah məbədi ərazisinin "Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq Qoruğu, Quba rayonunun Xınalıq kəndinin tarixi ərazisinin "Xınalıq" Dövlət Tarix-Memarlıq və Etnoqrafiya Qoruğu, Ağstafa rayonu ərazisində Keşikçidağ silsiləsinin bir hissəsini əhatə edən mağaralar kompleksinin "Keşikçidağ" Dövlət Tarix-Mədəniyyət Qoruğu elan edilməsi haqqında sərəncamlar imzalayıb.

**20 dekabr 1905** – Ədəbiyyatşünas Atababa Daşdəmir oğlu Musaxanlı (1905 – 14.8.1941) Bakıda doğulub. "Kitabi-Dədə Qorqud"un ilk tədqiqatçılarından biridir. Repressiya qurbanı olub.

**20 dekabr 1925** – İlk azərbaycanlı qadın fəlsəfə elmləri doktoru, professor Şükufə Şamil qızı Mirzəyeva (1925 – 9.10.1980) Ağdam rayonunun Gülablı kəndində doğulub. Estetika tarixi və nəzəriyyəsinə dair tədqiqatların müəllifidir.

**20 dekabr 1939** – Teatrşünas, sənətşünaslıq namizədi Məmmədşah Qədim oğlu Atayev (1939-2011) anadan olub. Akademik Milli Dram Teatrında truppa müdiri işləyib.

**20 dekabr 2014** – Xalq rəssamı, Dövlət mükafatı laureatı Oqtay Seyid Hüseyn oğlu Sadıqzadə (21.2.1921 – 2014) vəfat edib. "Natəvanın portreti", "Hüseyn Cavidin aləmi" triptixi və s. tabloların müəllifidir.

**20 dekabr 2021** – Əməkdar artist Elşən Şıxəli oğlu Şirəliyev (2.10.1962 – 2021) vəfat edib. Dövlət Gənc Tamaşaçılar Teatrının aktyoru olub.

### Dünya

**17 dekabr 1830** – Fransız yazıçısı Jül de Qonkur (Jules de Goncourt; 1830 – 20.6.1870) anadan olub. Yazıçı Edmon de Qonkurun (1822-1896) kiçik qardaşıdır. Fransanın ən nüfuzlu ədəbi təltifi olan Qonkur mükafatı onların şərəfinə təsis edilib.

**17 dekabr 1893** – Alman teatr rejissoru və nəzəriyyəçisi Ervin Piksator (Erwin Piscator; 1893-1966) anadan olub.

**18 dekabr 1921** – SSRİ Xalq artisti, aktyor, sirk ustası Yuri Vladimiroviç Nikulin (1921 – 21.8.1997) anadan olub. Çəkildiyi filmlər: "Qafqaz əsiri", "Brilyant əl", "Qoca quldurlar", "Müqəvva" və s. Moskva Sirkinə rəhbərlik edib.

**19 dekabr 1864** – Alman bəstəkarı Adolf Zanberger (Adolf Sandberger; 1864-1943) anadan olub.

**19 dekabr 1915** – Fransız müğənnisi və aktrisası Edit Piaf (Edith Piaf – Edith Giovanna Gassion; 1915 – 10.10.1963) anadan olub.

**20 dekabr 1873** – Türk şairi Mehmet Akif Ersoy (1873 – 27.12.1936) İstanbulda doğulub. Türkiyə Cümhuriyyətinin Dövlət Himninin ("İstiqlal marşı"), "Çanakkala şəhidlərinə" poetik dastanı, "Haqqın səsləri" şeirlər toplusu və s. əsərlərin müəllifidir.

**20 dekabr 1915** – Türk yazıçısı Əziz Nesin (Mehmet Nusret Nesin; 1915 – 6.7.1995) anadan olub. Kitabları bir çox xarici dillərə çevrilib, o cümlədən hələ sovet dövründə Azərbaycanda ("Futbol kralı", "Taxtalıköydən məktublar" və s.) çap olunub.

**Hazırladı: V.Orxan**

# Çanaqqalada Azərbaycan əsgərlərinin xatirəsinə abidə ucaldılacaq

I Dünya müharibəsində Türkiyə (Osmanlı) Ordusunun şanlı tarix yazdığı 1915-ci il Çanaqqala döyüşlərində şəhid olan Azərbaycan əsgərlərinin xatirəsinə abidə ucaldılacaq. Dekabrın 14-də Çanaqqala şəhərində abidənin təməlqoyma mərasimi keçirilib.



Mərasimdə Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov, Çanaqqala valisi İlhami Aktaş, Azərbaycan-Türkiyə parlamentlərarası dostluq qrupunun rəhbəri Əhliman Əmiraslanov, Çanaqqala Döyüşləri Gelibolu Tarixi Bölgə Baş İdarəsinin rəisi İsmayıl Kaşdemir, digər rəsmislər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Mərasim iki ölkə şəhidlərinin xatirəsinin anılması, Azərbaycan və Türkiyənin Dövlət himnlərinin səsləndirilməsi ilə başlayıb.

Səfir Rəşad Məmmədov açılış nitqində Çanaqqalanın müqəddəs bir yer olduğunu, 107 il əvvəl azərbaycanlıların bu torpaqlarda öz qardaşları ilə birlikdə düşmənə qarşı döyüşərək şəhid olduqlarını bildirib. Qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığı ilə inşa olunacaq bu abidə qəhrəman Azərbaycan övladlarının xatirəsini uğrunda can verdikləri torpaqlarda əbədiləşdirəcək.

İsmayıl Kaşdemir çıxışında Çanaqqalada ucaldılacaq abidənin Azərbaycan-Türkiyə birliyinin önəmli simvollarından biri olacağını vurğulayıb. Bildirilib ki, tarixi qoruq olan Çanaqqala Döyüşləri Gelibolu Tarixi Bölgəsində abidə üçün ümumilikdə 2 min kvadratmetrə yaxın ərazi ayrılıb.

Çıxışların ardınca əlamətdar günün xatirəsinə hazırlanmış məktub səfir Rəşad Məmmədov, vali İlhami Aktaş və İsmayıl Kaşdemir tərəfindən imzalanıb və xüsusi kapsulda abidənin təməlinə yerləşdirilib. Abidənin təməli qoyulub.

Qeyd edək ki, 24 aprel 2015-ci ildə Çanaqqala döyüşlərinin 100-cü ildönümü münasibətilə keçirilmiş tədbirdə iştirak edən Prezident İlham Əliyev bu döyüşlərdə şəhid olmuş azərbaycanlıların xatirəsinin Çanaqqala Şəhidliyi Kompleksində əbədiləşdirilməsinə dair müvafiq dövlət qurumlarına göstəriş vermişdi.

Heykəltəraş Tural Rzaquliyevin hazırladığı layihəyə əsasən, milli ornamentlərin əks olunacağı 180x190 sm ölçülü bürünc barelyefdə çiyin-çiyinə vuruşan Azərbaycan və Türkiyə əsgərləri təsvir ediləcək. Barelyef 3 metr yüksəklikdəki postament üzərinə yerləşdiriləcək və abidə onu tamamlayacaq sütunla birlikdə ümumilikdə 13 metr hündürlükdə olacaq.

**Mehparə Sultanova**
**Ankara**

# Serbiya ilə diplomatik münasibətlərin 25 illiyi Belqradda qeyd edilib

Serbiyanın paytaxtı Belqrad şəhərində Azərbaycan Respublikası və Serbiya Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 25 illiyinə həsr olunmuş konsert keçirilib. Konsert "Madlenianum" opera teatrında təşkil olunub.



Azərbaycanın Serbiyadakı səfiri Kamil Xasiyev çıxış edərək iki ölkə arasında münasibətlərin bütün sahələr üzrə inkişaf etdiyini bildirib. Qeyd edib ki, suverenliyə və ərazi bütövlüyünə qarşılıqlı hörmət və dəstək iki ölkə arasında strateji tərəfdaşlığın təməl prinsipini təşkil edir. Serbiya Avropa qitəsində Azərbaycanın ən yaxın tərəfdaşlarından biridir. Azərbaycan Prezidenti İlham Əliyevin noyabr ayında Serbiyaya rəsmi səfəri ikitərəfli münasibətlərin bütün sahələrdə inkişafına böyük töhfə verib, mədəni əlaqələr yüksələn xətlə inkişaf edir. Səfir ölkələrimiz arasında vizasız gediş-gəliş haqqında sazişin tezliklə qüvvəyə minməsinin turizmi və işgüzar əlaqələri gücləndirəcəyini vurğulayıb.

Serbiya xarici işlər nazirinin müavini Vladimir Mariç ölkələrimiz arasında strateji tərəfdaşlıqdan qürur duyduqlarını bildirib. Vurğulayıb ki, Azərbaycan Prezidentinin bir neçə həftə əvvəl Serbiyaya rəsmi səfəri bu ilin ən mühüm ikitərəfli səfərlərindən biridir. Bu səfər çərçivəsində yeddi ikitərəfli saziş, Serbiya və Azərbaycan arasında Strateji Tərəfdaşlıq Şurasının yaradılması haqqında memorandum imzalanıb.

Konsertdə Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının və Fikrət Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının solistləri – Əməkdar artistlər Elnur Süleymanov və Günel Allahyarova, beynəlxalq müsabiqələr laureatı pianoçu Fəqan Həsənli çıxış ediblər.

Konsertdə Serbiyanın məşhur vokalçısı, Belqrad Milli Operası Teatrının bədii rəhbəri Jasmina Trumbetaş, skripkaçı Marko Yosifoski, pianoçu Mina Ristiç və dirijor Dzordze Stankoviçin idarəsi ilə "BRAS Belqrad" musiqi ansamblı da iştirak edib.

Səhnə fonunda Azərbaycanın mədəni irsi, Qarabağın, Şuşanın, paytaxt Bakının fotogörüntülərinin nümayişi qonaqların marağına səbəb olub. Elnur Süleymanov və Günel Allahyarovanın ifasında "Uzundərə" və "Naz eləmə" rəqsləri alqışla qarşılanıb, xüsusilə G.Allahyarovanın təqdimatında "Sarı gəlin" rəqsini tədbir iştirakçıları heyranlıqla izləyiblər.

Tədbirdə Serbiyanın rəsmiləri, deputatlar, elm, incəsənət xadimləri, diplomatik korpusun nümayəndələri, Belqradda fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzi, Serbiya-Azərbaycan Ticarət Palatası və Serbiya-Azərbaycan Dostluq Cəmiyyətinin rəhbərləri və üzvləri, Serbiyada yaşayan, çalışan və təhsil alan həmvətənlərimiz iştirak ediblər.



# Mühafizəkar ingilislər bəyənmirlər

## Ailəsi haqqında serial şahzadə Harrinin populyarlığını minimuma endirib

Britaniya şahzadəsi Harrinin populyarlığı onun özü, həyat yoldaşı Meqan Markl və uşaqları haqqında sənədli serialın yayımlanmasından sonra minimuma enib.

"The Daily Telegraph" qəzeti yerli şirkətlərdən birinin keçirdiyi sorğunun nəticələrinə istinadla yazır ki, rəyi soruşulanların 59 faizi III Karlın kiçik oğluna mənfi, 33 faizi isə müsbət münasibət bəsləyir. Meqan Markla münasibət isə 64 faiz mənfi, 25 faiz müsbət olub.

Qeyd edək ki, hazırda ABŞ-da yaşayan cütlük məhkəmələrdən başı açılmayan (o cümlədən təcavüz ittihamı ilə) şahzadə Endryu (III Karlın kiçik qardaşı) istisna olmaqla, Britaniya kral ailəsinin ən az populyar üzvləridir. Krallığın ən məşhurları isə Harrinin böyük qardaşı Uels şahzadəsi Vilyam və onun həyat yoldaşı şahzadə Ketrindir. Respondentlərin müvafiq olaraq 77 və 72 faizi onlara müsbət münasibət bəsləyir.

Mühafizəkar ingilislərin Sasseks hersoqu Harriyə və xanımına münasibətləri dekabrın 8-də onların həyatı haqqında serialın birinci hissəsinin "Netflix" videoservisində premyerasından sonra yaranıb. Britaniya mediası cütlüyün tanışlığından və dərisinin rənginə görə krallıqda Meqan Marklın üzləşdiyi çətinliklərdən bəhs edən sənədli film layihəsinin ilk üç seriyasını tənqid edib. "The Daily Telegraph"ın kral ailəsinə yaxın mənbəyə istinadla yazdığına görə, filmdə Birləşmiş Krallığın "Britaniya imperiyası 2.0" ilə müqayisə edilməsi ölkə və monarxiya üçün təhqiredicidir.

**V.Kamal**

# Baydendən yeni bəd xəbər: "Bu, şübhəsiz ki, olacaq..."

ABŞ Prezidenti Cozef Bayden bəşəriyyətin növbəti pandemiya ilə üzləşəcəyi barədə xəbərdarlıq edib.

Bayden Vaşinqtonda keçirilən ABŞ-Afrika sammitində çıxışı zamanı deyib: "COVID-19-un yayılması ilə mübarizə aparsaq belə, biz daha güclü səhiyyə sistemləri və institutları qurmağa və səhiyyə xidmətinə universal çıxışı təmin etmək üçün səyləri gücləndirməyə davam edirik".

O qeyd edib ki, hakimiyyət bütün bunları yeni pandemiyaya hazırlaşmaq üçün edir. "Bu, şübhəsiz ki, olacaq", – deyə Bayden vurğulayıb.

Bir qədər əvvəl "Microsoft"un yaradıcısı Bill Qeyts bəşəriyyəti yaxın 20 ildə 50 faiz ehtimalla yeni pandemiyaların gözlədiyini bildrimişdi.

Bu arada Dünya Səhiyyə Təşkilatı (DST) həftəlik epidemioloji bülletenində COVID-19-a yoluxmada yenidən artım tendensiyası olduğunu diqqətə çatdırıb. Ötən həftə ərzində dünyada COVID-19-a yoluxma 2 faiz (3,3 milyon nəfər), koronavirusla bağlı ölüm halları isə 10 faiz (9,7 minə yaxın) artıb.

Qeyd edək ki, 2020-ci ilin martından etibarən pandemiya dövründə dünyada 650 milyondan çox koronavirusa yoluxma və 6,6 milyona yaxın ölüm halı qeydə alınıb.

# Artıq dünyanın ən varlı adamı deyil

## Cəmi 178 milyard dolları var

İlon Mask elektrikli avtomobil şirkəti "Tesla"dakı səhmlərinin dəyərinin kəskin azalmasından sonra artıq dünyanın ən varlı adamı deyil.




"Forbes" və "Bloomberg"in hesabatına görə, lüks məhsullar şirkəti olan LVMH-nın baş icraçı direktoru fransız Bernar Arno (Bernard Arnault) Maskı geridə qoyub. Mask "Tesla"nın baş icraçı direktoru və təxminən 14 faiz səhm payına sahibdir. O, oktyabr ayında "Twitter" sosial şəbəkəsini 44 milyard dollara satın alıb. "Forbes"ə görə, İlon Mask hazırda təxminən 178 milyard dollar, Bernar Arno isə 188 milyard dollar sərvətə malikdir.

Bu arada İlon Maskın "Tesla"dakı payının bir hissəsini təxminən 3,6 milyard dollara satdığı bildirilir. Məlumata görə, dekabrın 12-dən 14-dək Mask 22 milyon səhm satıb. Qiymət 1 səhm üçün 156-176 dollar arasında dəyişib.

Noyabrın əvvəlindən birjada "Tesla"nın qiymətli kağızlarının qiyməti əhəmiyyətli dərəcədə azalıb - 1 səhm üçün 227 dollardan 156 dollara düşüb. İnvestorlar ehtiyat edirlər ki, "Twitter"i alandan sonra Mask elektromobillər sahəsində biznesə kifayət qədər diqqət yetirmir.

Xronoqraf

# Tarixdə bu gün

## Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 97 il əvvəl...

**18 dekabr 1925-ci ildə** Moskvada Ümumittifaq Kommunist (bolşeviklər) Partiyasının 14-cü – "Sənayeləşmə qurultayı" başlanıb. Sovet hökuməti ölkədə kütləvi sənayeləşmə kursunu elan edib.

### 76 il əvvəl...

**17 dekabr 1946-cı ildə** Cənubi Azərbaycanda Seyid Cəfər Pişəvərinin rəhbərliyi ilə qurulmuş Milli Hökuməti devirən İran silahlı qüvvələri Təbriz, Ərdəbil, Urmiya, Mərənd və digər şəhərlərdə kütləvi həbs və qırğınlar həyata keçiriblər. Milli hərəkat fəallarına divan tutuldu, yüzlərlə insan həlak oldu, minlərlə güneyli soydaşımız didərgin düşdü. Cənubi Azərbaycan türklərinin mühacir təşkilatları 17 dekabrı "Güney Azərbaycanda milli soyqırımı günü" kimi qeyd edirlər.

### 68 il əvvəl...



**19 dekabr 1954-cü ildə** Parisdə Avropa Şurası ölkələrinin hökumət başçıları tərəfindən "Avropa mədəniyyət Konvensiyası" imzalanıb. Bu, Avropada inteqrasiya proseslərinə təkan verən ilk sənədlərdən biridir. Konvensiya üzv ölkələrin parlamentlərində ratifikasiyadan sonra 5 may 1955-ci ildə qüvvəyə mindi.

### 36 il əvvəl...

**16 dekabr 1986-cı ildə** Qazaxıstanda siyasi səciyyəli ilk kütləvi antisovet çıxışı olub. Moskva tərəfindən Qazaxıstan KP MK-nın birinci katibi vəzifəsinə rus Q.Kolbinin təyin edilməsi paytaxt Almatıda tələbələrin kütləvi aksiyasını doğurub. Aksiyalar üç gün sürüb və hərbi qüvvə tətbiqi ilə yatırılıb. Qazaxıstan müstəqilliyini elan edəndən sonra 16 dekabr Milli Dirçəliş Günü kimi qeyd edilir.

### 33 il əvvəl...

**16 dekabr 1989-cu ildə** Rumıniyanın macarlar yaşayan Timişoare şəhərində Nikolae Çauşeskunun kommunist diktaturasına üsyan başlanıb. Etiraz çıxışları tezliklə bütün ölkəni əhatə etdi. Şərqi Avropadakı "məxməri inqilab"lardan fərqli olaraq, Rumıniya inqilabı qanlı toqquşmalarla müşayiət olundu. Çauşesku etirazları yatırmaq üçün qoşun hissələri göndərdi, yüzlərlə insan həlak oldu. Lakin inqilabı yatırmaq mümkün olmadı və bir həftə içində Çauşesku rejimi süqut etdi. 25 dekabrda o, həyat yoldaşı Yelene Çauşesku ilə birlikdə edam edildi.

### 31 il əvvəl...

**16 dekabr 1991-ci ildə** Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Heydər Əliyevin sədrliyi ilə keçən iclasında 31 dekabrın dünya azərbaycanlılarının həmrəylik bayramı kimi qeyd olunması barədə qərar qəbul edilib. Ali Məclis bununla bağlı qanunvericilik aktının qəbul olunması üçün Azərbaycan Ali Sovetinə müraciət edib. Dekabrın 25-də parlament 31 dekabrın "Dünya azərbaycanlılarının həmrəyliyi günü" elan olunması barədə qanun qəbul etdi.

**19 dekabr 1991-ci ildə** Azərbaycanla Ermənistan arasında dəmiryolu nəqliyyatı tamamilə dayandırılıb. Azərbaycan bu məcburi addımı Ermənistan tərəfin Mehri rayonu ərazisində qatarlara mütəmadi hücumlarına cavab olaraq atmışdı. Bakı-Naxçıvan marşrutu ilə hərəkət edən qatarlara basqınlar 1989-cu ildə başlamış və dəmiryolunda hərəkət dəfələrlə kəsilmişdi.

### 25 il əvvəl...



**18 dekabr 1997-ci ildə** Prezident Heydər Əliyev "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi sürətdə deportasiyası haqqında" fərman imzalayıb. Fərmanda 100 minə yaxın azərbaycanlının ata-baba yurdlarından deportasiyasına dair SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr və 1948-ci il 10 mart tarixli qərarlarına siyasi qiymət verilir, bu deportasiya aktlarının XIX əsrin əvvəlindən başlayaraq azərbaycanlılara qarşı həyata keçirilmiş təqib və soyqırımı siyasətinin tərkib hissəsi olduğu vurğulanırdı.

### 19 il əvvəl...

**15 dekabr 2003-cü ildə** Azərbaycan xalqı Heydər Əliyevlə vidalaşıb. Dəfn mərasimində Türkiyə, Rusiya, Qazaxıstan, Ukrayna prezidentləri, Gürcüstanın dövlət rəhbərliyi, digər ölkələrdən nümayəndə heyətləri iştirak edib. Heydər Əliyev Fəxri xiyabanda dəfn olunub.

### 17 il əvvəl...

**16 dekabr 2005-ci ildə** Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Müdafiə Sənayesi Nazirliyi yaradılıb.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib,
"Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5078. **Sifariş:** 3666
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641